**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# Milli inkişaf strategiyasında sosial dövlət quruculuğunun yeri və rolu

İxtisas: 6312.01 - Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi

Elm sahəsi: Sosiologiya

İddiaçı: Səadət Davud qızı Məmmədova

Elmlər doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasi**yanın**

**A V T O R E F E R A T I**

B A K I - 2 0 2 1

Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Sosiologiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Fəlsəfə elmləri doktoru, professor
**Tahirə Bəkir qızı Allahyarova**

Rəsmi opponetlər: Fəlsəfə elmləri doktoru, professor
**Rəna Mirzəzadə**

sosiologiya elmləri doktoru, prof., akademik
**Zarema Şaukenova**

Professor,Dr.
**Ceylan Tokluoglu**

Professor,Dr.
**Erdal Aksoy**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 3.02 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: sosiologiya elmləri doktoru, professor

______________ **Hüseyn Tapdıq oğlu Qaraşov**

Dissertasiya şurasının elmi katibi: fəlsəfə elmləri doktoru, professor

______________ **Ziba Bahadır qızı Ağayeva**

Elmi seminarın sədri: fəlsəfə elmləri doktoru, professor

______________ **Qorxmaz Nüsrət oğluVəliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

## GİRİŞ

**Mövzunun aktuallığı.** İctimai tərəqqinin yeni nailiyyəti olan sosial dövlət keyfiyyətli və layiqli sosial yaşamın təmin edilməsilə bağlı dövlət idarəçiliyi formasıdır. Sosiala yönələn bu idarəetmə birgəyaşayışda dövlət – cəmiyyət, dövlət – vətəndaş və dövlət – şəxsiyyət arasında qarşılıqlı kömək və qarşılıqlı dəstək, sosial məsuliyyət və sosial həmrəylik ideallarının gerçəkləşməsini ehtiva edir. Cəmiyyətdə birgəyaşayışın idealı olan sosial dövlətə dair baxışlar müxtəlif təlimlərdə əksini tapmışdır. Tarixən sosial dövlət forması müasir anlamda ilk dəfə Qərbdə həyata vəsiqə almışdır. XX yüzillikdə sosial dövlət ideya müstəvisindən müxtəlif baxış və konsepsiyalarda əksini tapan nəzəriyyəyə, buradan da reallaşdırılan gerçəkliyə, dünya inkişafında təqdir edilən aparıcı meylə çevrilmişdir. Sosial dövlətdə cəmiyyətin tərəqqisinin sosial amilləri əsas amala çevrilərək vətəndaşların firavanlığının yüksəlməsinə yönəlir. Bu dövlət quruluşunun sosial münasibətlərdə ayrıseçkiliyin fövqündə durması, sosial gərginlik və münaqişələrin tənzimlənməsi ilə dövlət-insan-cəmiyyət müstəvisində qarşılıqlı ahəngdar münasibətlərin yaranmasına yönəlməsi onun dəstəklənməsinə gətirmişdir.

Sosial ədalət ideyasından qaynaqlanan, Yeni dövrdən başlayaraq konseptual yanaşmalarda möhkəmlənən bu dövlətçilik modeli çox sayda dövlətlərin "Ana Qanununda" hüquqi-qanunverici ifadəsini tapmağa qədər təkamül etmişdir. Tədricən ölkələrin sosial-tarixi inkişaf xüsusiyyətlərinə müvafiq sosial dövlət modelləri formalaşmışdır. XXI yüzildə Azərbaycan hökuməti sosial dövlət quruculuğunu dövlətin milli inkişaf strategiyasının əsası kimi müəyyənləşdirmişdir. Ölkəmizdə sosial dövlətin hüququ əsasları Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin 15 iyun tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" Fərmanı

ilə qurulmağa başlanmışdır. [1] Azərbaycan Respublikasının Konstitusiyasında sosial dövlətin hüquqi əsasları möhkəmləndirilmişdir: "*Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır*" [2] Ümummilli liderin müəyyənləşdirdiyi sosial siyasətin istiqamət və prioritetləri Azərbyacanda sosial dövlət quruculuğunun təməl əsası oldu. Yeni minillikdə Azərbaycanda sosial dövlət quruculuğunun növbəti mərhələsi İlham Əliyevin adı ilə bağlıdır. İlham Əliyev Azərbaycanda "*sosial yönümlü dövlət*" [3] qurulduğunu bildirmişdir və 2003-2020-ci illərdə Milli inkişaf strategiyasının əsasları kimi bu istiqamətdə bir sıra qanun, qərar və proqramlar təsdiqlənmiş, tətbiq edilmişdir. Dövlət millətin özünütəşkilatlandırma iqtidarını ifadə edən sosial-siyasi qurum, idarəetmə sistemidir. Milli inkişaf strategiyası dövlətin bilavasitə milli sosial tərəqqiyə yönələn plan-prospektidir. Burada sosial tərəqqi deyərkən, insanların tələbatlarına uyğun səmərəli səhiyyə, təhsil və elm sistemlərinin bərqərar olması, gənclərin potensialının lazımi səviyyədə inkişafı və istifadəsi, vətəndaşlara bərabər imkanların təqdim edilməsi, onların siyasi idarəçiliyə uğurlu sosial inteqrasiyası, şərəfli əmək və ləyaqətli qocalığın təminatı ehtiva edilir. Milli inkişaf strategiyasının başlıca qayəsi müasir sosial tərəqqi prosesində xalqın və millətin mənəvi birliyinin əsası olan adət və ənənələrin, dilin, dinin qorunub saxlanması ilə milli vəhdətə nail olmaqdır. XXI yüzilin sosial yönümlü dövlətləri iqtisadi firavanlıq və keyfiyyətli yaşayışın əldə edilməsi, insan amilinin və potensialının düzgün

---

[1] Heydər Əliyev. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında. 1994-cü il 15 iyun tarixli Fərman. Azərbaycan Respublikası - Ali Sovetinin Məlumatı, 1994-cü il, 11, maddə 1. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/8921

[2] Azərbaycan RespublikasınınKonstitusiyası. - Bakı: Qanun, - 2005. - 64 s.

[3] 16 yanvar 2012-ci il tarixdə AR Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası. [Elektron resurs]. URL: http://www.president.az/articles/4098/print

qiymətləndirilməsi, sərmayə qoyuluşuna geniş imkanlar açılması, ixracın təkmilləşdirilməsi, makro-iqtisadi sabitliyə yönəlmə, uğurlu biznes mühitinin və keyfiyyətli infrastrukturun formalaşdırılmasını strateji məqsədlər olaraq müəyyələşdirmişlər. Milli inkişaf strategiyasında bütün sahələrdə dayanıqlı inkişafa nail olmaq əsas qayədir. Bu strategiyada milli təhlükəsizlik başlıca amal olaraq qəbul edildiyindən hər cür (təbii, iqtisadi, siyasi, mədəni və s.) böhran vəziyyətlərinin idarə olunması, böhrandan çıxış proqramları yer alır. Bu strategiyada dövlət idarəçiliyinin bütün vətəndaşlar üçün səmərəli və ədalətli olması, balanslaşdırılmış dövlət hakimiyyətinin yaradılması, qanunun aliliyi, yerli özünüidarəetmənin inkişafı, milli təhlükəsizliyə nail olmaq, vətəndaş cəmiyyətinin tərəqqisi, regionda və beynəlxalq münasibətlərdə xalqın və millətin mənafeyini üstün tutan praqmatik xarici siyasətin yürüdülməsi başlıca istiqamətlərdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020 – gələcəyə baxış" inkişaf konsepsiyasıvə 2016-cı ildə qəbul edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" yuxarıda qeyd edilənləri nəzərdə tutan qanuni sənədlərdir və ölkəmizdə sosial dövlət quruculuğunun həlledici yerə və rola malik olmasını nümayiş etdirir. Azərbaycan dövlətinin reallaşdırdığı sosial siyasət sosial rifahın tərəqqisinə yönəlmişdir. "Azərbaycan 2020 – gələcəyə baxış" inkişaf konsepsiyasının "*başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır*"[4] Həm "Azərbaycan 2020 – gələcəyə baxış" inkişaf

[4]"Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli - Fərmanı ilə təsdiq edilmişdir., - s. 36-37. [Elektron resurs]. URL: http://www.president.az/files/future_az.pdf

konsepsiyası, həm də Strateji Yol Xəritəsi sosial sahələrin idarə edilməsinə, tənzimlənməsinə və təkmilləşdirilməsinə yönələn normativ sənədlərdir. "*Ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaradılması məqsədi*" [5] daşıyan Strateji Yol Xəritəsi 12 müddəa üzərində qurulmuşdur. Burada bilavasitə sosial və iqtisadi inkişaf, o cümlədən sosial sahələrdəki islahatlar və yeniliklərin komparativ analizi təqdim edilir. Təhlilə əsasən ölkəmizdə sosial dövlət quruculuğu tendensiyasını belə təsnif etmək olar: sosial təmayüllü bazar təsərrüfatının inkişafı; sosial infrastrukturun inkişafı; regionların tərəqqisi; sosial təminatın inkişafı; elm, təhsil və səhiyyədə dəyişikliklər; hüquqi sahədə islahatlar; xüsusi mülkiyyətin dəstəklənməsi, kasıblığın minimallaşdırılması; qaçqınların və məcburi köçkünlərin yaşayış keyfiyyətlərininyüksəldilməsi və s.

Sosial dövlətin uğurlu quruculuğunun başlıca göstəricilərindən biri sosial institutların fəaliyyətilə bağlıdır. 2020-ci il qlobal sosial böhranı yaxud "COVİD-19" pandemiyası ölkəmizdə də sosial institutların fəaliyyətinin yeni istiqamətdə müəyyənləşməsinə gətirdi. 2020-ci il təhsil, səhiyyə, iqtisadiyyat, siyasət və digər sahələrdə böhranlı vəziyyətin idarə edilməsilə bağlı tədbirlərin reallaşdırılmasını aktuallaşdırdı və deyə bilərik ki, Azərbaycan bu istiqamətdə müvafiq sosial siyasət yürüdə bildi. "COVİD-19" pandemiyasının ölkəmizdə yaratdığı sosial xaosun qarşısının alınması və idarə edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti 2020-ci il 19 mart tarixli 1950 nömrəli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam təsdiq etdi.

[5] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. - Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. [Elektron resurs]. URL: // https://static.president.az/pdf/38542.pdf

Bu Sərəncam böhranlı vəziyytlərdə sosial sahələrin idarə edilməsi istiqamətində atılan və əhalinin və bilavasitə həssas təbəqələrin rifahının, sahibkarlığın müdafisəinin tənzimlənməsi istiqamətində həyata keçirilən tədbirlərə təkan verdi.

Sosial sahələrin tərəqqisinə yönələn xüsusi strateji dövlət sənədləri, həmçinin "Azərbaycan 2020 – gələcəyə baxış" inkişaf konsepsiyası və "Strateji Yol Xəritəsi"nin təhlili ölkəmizdə dünya təcrübəsinin sintezi və sosial modernləşmə təmayüllü sosial dövlət modelinin formalaşdığını göstərir. Müəyyən inkişaf modeli təhlil edilərkən tarix və ərazi göstəriciləri əsas götürülür və bu əsasda Azərbaycanda sosial dövlətin özünəməxsus regional (bölgənin geostrateji özünəməxsusluğundan təsirlənən) forması yaranır.

Sosiologiya elmində müasir dövlətin əsas səciyyəvi xüsusiyyətlərindən olan sosial dövlətin mahiyyəti, "Milli inkişaf strategiyasında sosial dövlət quruculuğunun yeri və rolu" mövzusunun tədqiqi xüsusi aktualıq daşıyır:

1.XXI yüzillikdə milli quruculuq siyasətinin başlıca təmayüllərindən olmasına, əksər ölkələrin qanunvericiliyində təsbit olunmasına, çoxsaylı modellərinin mövcudluğuna baxmayaraq, "sosial dövlət" anlayışı məna və mahiyyət baxımından çoxsaylı şərhlərə malikdir. Sosial dövlətin Qərbdə, həmçinin postsovet məkanında mütəxəssislər tərəfindən tədqiq və təhlil edilməsinə baxmayaraq, bu anlayışın ümumən qəbul edilmiş yekdil tərifi hələlik formalaşmamışdır. Sosial dövlətlə bağlı hər bir ölkənin özünəxas tarixi, iqtisadi, sosial və siyasi xüsusiyyətlərindən, tədqiqatçıların baxışlarından və s. asılı fərqli şərhlər təqdim edilir. Hətta lüğətlərdə də "sosial dövlət" anlayışının izahında fərqlər nəzərə çarpır. Məsələn, Kembric lüğətində sosial dövlət "*vergilər hesabına ölkənin dövlət strukturları tərəfindən ehtiyacı olan insanların tibbi, işsizliyə görə müavinət və digər sosial xidmətlərlə təmin edilməsinə*" yönələn idarəçilik forması kimi izah edilir.[6] Britaniya

---

[6] Welfare state / The editors of Encyclopaedia Britannica. [Electronic resource] / URL:https://www.britannica.com/topic/welfare-state

ensiklopediyasında təqdim edilən "sosial dövlət" konsepsiyasına görə "*dövlət, yaxud möhkəmlənmiş sosial institutlar vətəndaşların iqtisadi və sosial rifahını müdafiə və təmin etməyə yönəlir. Sosial dövlət bərabər imkanlar prinsipinə söykənir. Sosial dövlətin prioriteti sosial sığorta sisteminin inkişafıdır*". [7]

2. Elmi ədəbiyyatda sosial və hüquqi dövlət anlayışlarının hüdudları, qarşılıqlı bağlılığı və bununla belə ölkələrin inkişafının dəyərləndirilməsindəki fərqli məqamları tam aydınlaşdırılmamışdır. Geniş mənada bütün dövlətlər ictimai inkişafın nəticəsi kimi sosiallıq mahiyyətinə malikdir. Sosial dövlət quruluşu daha çox İsveçrə, Almaniya, Danimarka kimi ölkələrə aid edilsə də, bütün inkişaf etmiş dövlətlər özündə sosial dövlətin xüsusiyyətlərini daşıyır.

3. Bu gün insan haqlarının çəkisi və statusu, mahiyyətcə bağlılığı məsələsində qeyri-müəyyənlik sezilir. Qlobal geosiyasi maraqların mübarizəsində siyasi hüquqların məqsədyönlü olaraq qabardılması, sosial hüquqların arxa plana keçirilməsi praktikasının genişlənməsi nəzərə çarpır. Qaçqınların və köçkünlərin fundamental yaşam və sosial haqlarının məhdudlaşdırılması və s. hallar sosial dövlətin tənqidinə gətirmişdir.

4. XXI yüzilliyin ikinci onilliyində dünyada baş verən çoxistiqamtətli proseslər qlobal sosial nizam qaydalarının transformasiyasına təkan vermişdir. Buradan irəli gələrək, müxtəlif cəmiyyətlərdə sosial münaqişələrin artması, qlobal böhranlara rəvac verilməsi, milyonlarla insanın sosial hüquqlardan məhrum vəziyyətə düşməsi və humanitar faciə ilə üzləşməsi sosial dövlətin təkmilləşdirilməsinə yönələn tədqiqatların genişləndirilməsini və təqdim edilən mövzunun aktuallığını şərtləndirən faktordur. Faktiki olaraq, hazırda dünya sosial dövlətin növbəti təkamül proseslərinə şahidlik edir. 2008-ci ildən başlanan qlobal böhran çərçivəsində

---

[7]A S Hornby Oxford Advanced Learner's Dictionary of Current English / ed.Nicholas Abercrombie. Stephen Hill. Brayn S.Turner – New York: Oxford University press. – 2010. – p. 1749.

demoqrafik dəyişikliklərin genişlənməsi, əhalinin kütləvi miqrasiya axınları, iqtisadi artımın səngiməsi, sosial xərclərin azalması, sosial bərabərsizlik və sosial münaqişələrin yüksəlməsi aparıcı meylə çevrilir. Nəticədə, bir çox cəmiyyətlər və dövlətlər sosial stabilliyin pozulması və siyasi xaosa qərq olma riskinə məruz qalmaqdadır.

5. XIX-XX yüzilliklərdə Qərb cəmiyyətlərində sosial təbəqələr arasında sosial həmrəyliyin, ahəngdar münasibətlərin yaradılmasına köklənən sosial təminat və hüquqlar sistemi XXI yüzillikdə böhran yaşamaqdadır. Bir qədər epoxal-makrotarixi kontekstdə ifadə edilsə, sosial dövlət Qərbdə özünün inkişaf və genişlənmə fazasından – böhran fazasına keçid almışdır. Xüsusən gəlmə-miqrantlara və qaçqınlara münasibətdə sosial hüquqların ayrı-seçkiliklə tətbiqi aşkar reallıqdır. Siyasi səhnədə sosial hüquqlara yenidən baxılması məsələsi gündəmə gətirilmişdir. Bütün bu proseslərdə dövlətin sosial funksiyası, rolu və missiyası məsələsinin təhlili mövzunun tədqiqinin əhəmiyyətli olduğunu göstərir.

6. Bütövlükdə, müasir dünya uzun müddətli transformasiya mərhələsini yaşamaqdadır. İkiqütblü sistemin çökməsindən sonra yaşanan çoxqütblü dünya nizamının formalaşmadığı vəziyyətdə qeyri-müəyyən qlobal inkişaf modeli ortaya çıxmışdır. Qərbdə dövlətin sosial siyasəti milli maraqlar, siyasi mübarizə və geosiyasi çağırışlar baxımından sınağa çəkilir. Sosial dövlət modellərinin formalaşdığı Qərb dövlətlərinin bu sınaqdan necə çıxacağı və nəticələrinin sosioloji təhlilə cəlb edilməsi günün tələbidir.

7. Ənənəvi-klassik Qərb modelindən fərqli olan sosial dövlət modelləri hələlik əhatəli tədqiq olunmamışdır. Dövlətimiz ikiqütblü dünya sisteminin çökməsi, radikal transformasiyalar və münaqişələrin qlobal xarakter alması şəraitində sosial siyasəti milli quruculuğun ilkin məqsədi olaraq müəyyənləşdirmiş, sosial dövlətin Azərbaycan modelini təqdim etməyə yönəlmişdir.

8.Sosial dövlətin Azərbaycan modeli, onun mahiyyət fərqləri və xüsusiyyətləri, müharibə vəziyyətində və müharibədən sonrakı dövrdə sosial dövlət quruculuğunun mövcud qlobal iqtisadi-maliyyə böhranına rəğmən qlobal miqyasda etiraf edilən inkişaf dinamikası,

dövlətimizin sosial siyasətindəki islahatların məzmunu və perspektivləri, dünya ilə müqayisəsi, Azərbaycan təcrübəsinin öyrənilməsi müvafiq sosioloji tədqiqatın aparılmasını aktual edir.

9. 2021-ci il Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ müharibəsində əldə edilən qələbə sosial dövlətin prioritetlərindən olan milli təhlükəsizliyin təminatı məqsədilə ölkəmizin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin göstəricisidir. Müharibədən sonrakı şəraitdə qaçqın və məcburi köçkünlərin statusu ilə bağlı yeni tədbirlərin reallaşdırılması, geri qaytarılmış ərazilərdə iqtisadiyyatın və sosial infrastrukturun qurulması istiqamətində həyata keçiriləcək tədbirlər sosial dövlət quruculuğu ilə bağlı dünyaya yeni təqdimat olacaq.

10.Yuxarıda sadalananlar sosial dövlətə dair nəzəriyyə və baxışların, metodoloji yanaşmaların mahiyyətində dəyişikliklərin baş verməsini, uğurlu modellərin təhlili əsasında yeni yanaşmaların tədqiqi və ümumiləşdirilməsini, mövcud nəzəriyyələrin zənginləşməsini zəruri edir. Sosial dövlətin Qərb modelindən fərqli olan yeni modellərinin müqayisəli təhlili, bəşəriyyətin mühüm nailiyyəti olan sosial dövlətin müşahidə edilən böhranı proseslərini dəyərləndirməyə, çıxış yollarını aramağa töhfə ola bilər.

11. Hazırda qlobal miqyasda yaşanan qaçqın və məcburi köçkünlər problemi, miqrasiya böhranı nəticəsində Qərbdə sosial dövlətin bu sahədə siyasətinin çıxılmaz vəziyyətdə qalması ilə müqayisədə Azərbaycanın qaçqın məsələsinin həlli yönümündə tətbiq etdiyi sosial siyasətin təhlili sosiologiya elminin tələbləri baxımından zərurət kəsb edir.

12. 2020-ci ildə yaşanan qlobal sosial böhran yaxud "COVİD-19" pandemiyası sosial dövlətin təkamülündə yeni bir mərhələ olaraq qəbul edilə bilər. "COVİD-19" böhranı sayəsində bir tərəfdən, sosial dövlət quruculuğunda tarixi təcrübəyə malik və müəyyən nailiyyətlər əldə etmiş dövlətlərin sosial siyasətlərində və sistemlərindəki çatışmazlıqlar aşkar oldu və artıq sosial yönlü tərəqqinin prioritetlərinin dəqiqləşdirilməsi imkanları açıldı, digər tərəfdən sosial sahələrdə (elm, təhsil, səhiyyə, mədəniyyət və s.)

yaranan qeyri-sabitlik, yaxud xaos qlobal xarakter alaraq, dünya dövlətlərinin həmrəyliyinə, qlobal sosial və siyasi tənzimləmə sisteminin tətbiqinə yol açdı. Belə demək olarsa, sosial dövlət konsepsiyasının və quruculuğu istiqamətlərinin qloballaşmasına şərait yaranmış oldu.

**Mövzunun işlənmə dərəcəsi.** Sosial dövlət fenomeni XIX yüzildən etibarən tədqiqat obyektinə çevrilmiş, müxtəlif nəzəriyyələrin formalaşmasına əsas olmuşdur.

Sosial dövlət ideyasının köklərini ideal cəmiyyət və ədalətli dövlət axtarışında olan qədim Çin, Hindistan, Yaxın və Orta Şərq ölkələri mütəfəkkirlərinin konsepsiyalarında tapmaq olar. Hələ qədim Çində daosizm kamil cəmiyyət, dövlət və sosial münasibətlərə nail olmağın yolunu patriarxal sadəliklə bağlayırdı. Konfutsi isə öz paternalist-patriarxal dövlət konsepsiyasında ideal dövləti böyük bir ailə kimi təsvir edirdi və burada hər bir kəsin öz roluna məsuliyyətlə yanaşmasını vurğulayırdı. Motzısı isə "*bütün insanlar arasında təbii bərabərliyin bərqərar olması*" ideyasını inkişaf etdirmişdi. [8] Sosial dövlətin mahiyyətindən doğan "sosial ədalət", "sosial bərabərlik" ideyaları Qədim yunan mütəfəkkirlərinin əsərlərində geniş təzahür tapmışdır. E.ə.VIII əsrdə Homerin "İlliada" və "Odessaya" əsərlərində ədalət "*insanların əsas hüququ*" kimi izah edilirdi. Yeddi müdriklərdən olan Solon ideal demokratik dövlət deyərkən "*varlılarla kasıblar arasında kompromisin tapılması, sosial bərabərlik*" ideyasını irəli sürürdü. E.ə. V yüzildə Pifaqor və pifaqorçular "*sosial ədalət və sosial bərabərlik*" ideyalarını inkişaf etdirdilər. Xalkedonlu Faley "mülkiyyət bərabərliyini" ideal dövlətin başlıca amili hesab edirdi. Hippod "*ideal dövlət quruluşu*", Yambul "Günəş şəhəri", Demokrit "*qarşılıqlı yardım, qardaşlığa söykənən dövlət birliyi*" ideyalarını təbliğ edirdilər. Sofistlər ideal dövlət quruluşunun əsasında "*xeyirxah vətəndaşların yetişdirilməsini*" görürdülər və ədalət, bərabərlik ideyalarını inkişaf etdirirdilər. Görkəmli mütəfəkkir

---

[8] Рыков С.Ю. Древнекитайская философия. - Москва: ИФРАН, - 2012. - 312 с.

Sokrat "*yaxşı dövlətin yaxşı qanunlarla və bilikli insanlar tərəfindən idarə edilməsinə*" inanırdı [9] Platonun "Dövlət" və "Qanunlar" adlı əsərlərində təqdim edilən "*ideal dövlət – ədalətli, müdriklrəin idarə etdiyi, şəxsi mülkiyyətin olmadığı, sosial bərabərliyə söykənən*" idarəçilik formasıdır [10] Dövləti bütün münasibətlərdə vahid tam olaraq görən Aristotel [11] ədalət, azadlıq və bərabərlik, vətəndaş, hüquqlarla bağlı müzakirələr aparır, "*oliqarxiya və demokratiyanın qarışığı olan politeyanı çoxluq tərəfindən hamının rifahı naminə idarə edilən ən yaxşı dövlət idarəçiliyi*" kimi təqdim edirdi. E.ə. IV yüzildə Epikür "*azad insan – məsuliyyətli insan*" anlayışını inkişaf etdirir, "*dövləti ümumi rifaha nail olmaq məramı ilə insanlar arasında bağlanan razılaşmanın nəticəsi*" olaraq izah edirdi. Dövlətin altı əsas idarəetmə formasını təqdim edən Polibi demokratiyanı uğurlu nəticə olaraq vurğulayırdı. Qədim Roma müəlliflərinin ideal dövlət və ideal cəmiyyətə dair düşüncələri Platon, Aristotel və digər yunan mütəfəkkirlərinin təsiri ilə formalaşmışdı. Mark Tuli Siseron dövlətə "*azad insanların ümumi maraqları əsasında yaranmış birlik*" tərifi verərək təkhakimiyyətliliyə qarşı çıxırdı, senat respublikası yaradılması fikrini irəli sürürdü. Mark Avreli Antoni "*dövlətin bütün bəşərə bərabər hüquqlar verməsini*" təqdir edirdi. IV əsrdə Avreli Avqustin "İlahi şəhər" və "Azad iradə" adlı əsərlərində "*yerdə (Yer kürəsində) ideal dövlətin olmaması*" ideyasından çıxış edirdi. XIII yüzildə Foma Akvinski öz əsərlərində göstərirdi: "*dövlətin başlıca məramı ümumi rifahın, hər kəsin*

---

[9] Хрестоматия по философии / Под ред. Радугина А.А. Москва: Центр, - 2001. - 416 с.

[10] Платон. Собрание сочинений [в 4 томахс / Платон. - Москва: Мысль, - том 2. - 1994, - 830 с.

[11] Аристотель. Сочинения: [ в 4 томах] / Аристотель. - Москва: Мысль, - том 4. – 1983,м – с 376–644.

*ləyaqətli həyatının təmin edilməsidir*", lakin mütəfəkkir sosial bərabərliyi qəbul etmirdi.[12]

Orta əsrlərdə həm Qərbdə, həm də Şərqdə ideal dövlət konsepsiyaları geniş vüsət alır. Bu dövrdə Şərqdə Əl-Fərabi, ibn Rüşd, Nəsirəddin Tusi, İbn Xaldun və başqaları mükəmməl dövlət idarəçiliyini şərh ermişdilər. Platonun ideal dövlətindən təsirlənən Əl-Farabi "*insanlara xoşbəxtlik verəcək* "*fəzilətli dövlət*" konsepsiyasını irəli sürmüşdü. [13] Görkəmli mütəfəkkir Nizami Gəncəvinin "İskəndərnamə. Şərəfnamə" poemasında "*ideal dövlət ədalətli və sosial bərabərliyin hakim olduğu cəmiyyətə əsaslanan dövlət*" kimi təqdim edilir. [14] Nəsirəddin Tusi ayrı-ayrı sosial təsisatlar (ailə, icma və s.) arasında qarşılıqlı münasibətlər əsasında idarəetmənin xüsusiyyətlərini və dövlət idarəçiliyinin mahiyyətini şərh etmişdir. İbn Rüşd ədalətli dövlət və ədalətli hökmdar haqqında fikirləri inkişaf etdirmişdi. [15] Şərqdə "ümran" – sosiologiya elminin banisi İbn Xaldun öz dövlət nəzəriyyəsini irəli sürmüş və ideal idarəetmə haqqında fikirlərlə çıxış etmişdi. [16] XIX əsr müsəlman mütəfəkkiri Məhəmməd Rəşid Riza İbn Xaldunun fikirlərini inkişaf etdirərərk, "*həqiqi islam dinin hakim olduğu dövləti mükəmməl dövlət forması*" adlandırırdı və bu fikirlərini "Xəlifət yaxud böyük İmamət" adlı əsərində açıqlayırdı. Bir qədər sonrakı dövrlərdə Əli əbdül-Razi "İslam və hakimiyyətin əsasları" adlı traktatında "*xilafət dövlət quruluşunun vacib olmadığını, dövlətin öz təbəələrinə qarşı xeyirxah olmasını və bütün dini vəzifələrin yerinə yetirilməsinin*

---

[12] Хрестоматия по философии. / Под ред. Радугина А.А. - Москва: Центр,- 2001.- 416 с.

[13] Əbunəsr Farabi. Məsələlərin mahiyyəti. Şərq fəlsəfəsi (IX-XII əsrlər). / Tərtibçi: Z. C. Məmmədov; Red.: Ə. S. Abasov. - Barı: BDU, - 1999, - 303 s.

[14] Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. / Nizami. – Bakı: Lider, - 2004, - 432 s.

[15] Ibn Rüşd'ün Felsefesi. Ibn Rüsd Fasl-ül-Mekaal.. Kitab-ül-keşf.. / tercümesi. Nevzad Ayasbeyoğlu. – Ankara: Ankara Utniversitesi İlahiyat fakültesi yayınlarından. - 1955, - 178 s.

[16] İbn Haldun. Mukaddime / II Çeviren Zakir Kadiri Ugan. – İstanbul: Millî eğitim bakanliği yayınları, - 1996. - 673 s.

*zəruriliyini*" vurğulayırdı. [17] Orta əsrlərdə Qərbdə dövlət nəzəriyyəçiləri sırasında Nikolo Makiavelli dövlətlərin idarə edilməsi və burada hökmdarların və qəbul edilən qanunların rolu məsələlərini açıqlamışdır. [18] Bu dövrdə Martin Lüter inkişaf etmiş dövlətin əsas xüsusiyyəti olan "*bərabərlik prinsipini*", Tomas Münser "*vətəndaş həmrəyliyinin əsası olan "ümumi fayda*" [19], Jan Kalvin "*ilahi qanunların hakim olduğu "ilahi dövlət"* ideyasını [20], Jan Boden "*ən yaxşı və suveren dövlət, sosial birliklər, sosial institutlar, idarəçilikdəki islahatlar"* və s. haqqında fikirlər irəli sürmüşdülər. [21] Bəşəriyyətin ideal dövlət idarəçiliyi haqqındakı fikirləri bu dövr utopistləri Tomas Morun "Utopiya", Tomazo Kampanellanın "Günəş şəhəri", Etyen Kabenin "İkariyaya səyahət" və s. əsərlərində geniş yer almışdır. İntibah dövrünün görkəmli mütəfəkkirlərindən olan İohann Altuzi "*dövlətdə ali hakimiyyətin yalnız xalqa məxsus olduğunu*" bildirirdi. Frensis Bekonun dövlət təlimində "*dövləti qoruyub saxlamaq, xoşbəxt və çiçəklənən dövlət qurmaq, sərhədlərini genişləndirmək hakimiyyətin incəsənti*" kimi şərh edilirdi. O, ümumi ədalət konsepsiyasını irəli sürürdü. B.Spinozanın siyasi təlimində "ümumi müqavilə" konsepsiyası inkişaf etdirilirdi və demokratik dövlət quruluşuna üstünlük verilərək, "*dövlətin öz vətəndaşlarını müdafiə etməli olduğunu, vətəndaşların təbii hüquqlara, o cümlədən səsvermək və dövlət idarəçiliyində iştirak etmək hüquqlarına malik olduqları*"

---

[17] История восточной философии: учебное пособие. / под ред. М.С.Козлова - Москва: ИФ РАН, - 1998. - 122 с.

[18]Макиавелли Н. Государ. / Макиавелли Н. - Москва: Планета, - 1990. - 80 с.

[19] Лютер М. Застольные беседы. / Лютерь М. - Одесса: Тюльпан, - 2011, - 280 с.

[20] Кальвин Ж. Наставление в христианской вере. [в 4 томах] / Кальвин Ж. - Москва: Изд-во РГГУ, - том 1, - 1 997, - 581 с.

[21] Бобкова М.С. Жан Боден: История жизни в эпоху катастроф // История через личность. Новая историческая биография. – Москва: Мысль, - 2000, - с. 265-307.

göstərilirdi. [22] XVII yüzildə C.Milton "*respublika idarəçilik formasının əsasları, azadlıq, demokratiya, xalqın dövlət idarəçiliyində iştirakı imkanlari*" haqda düşüncəni inkişaf etdirmişdi. [23] C.Harrinqton "*dövlətin iqtisadiyyatdan asılılığı*" [24], C.Lilbern "*ideal idarəçilik forması olan və bölgülü idarəçiliyə malik respublika quruluşu*"[25], C.Uinstenli "*kollektiv mülkiyyətin inkişafına söykənən respublika quruluşu*" [26], T.Hobbs "*dövlətin mütləq hakimiyyətinin sülhə və təbii qanunlara əməl edilməsinə zəmanət verməsi və xalqın rifahının ali qanun olması"*[27] ideyalarını inkişaf etdirmişdilər. C.Lokk "*bərabər hüquqlara və bərabər imkanlara əsaslanan ilkin burjua liberalizmi*" formasını müdafiə edirdi. [28] Ədalət prinsipini inkişaf etdriən Q.V.Leybnist "*insan azadlığı, ümumi rifah və hər kəsin xoşbəxtliyinin əldə edilməsində insanların universumun kamilləşdirilməsi və ümumi firavanlıq, ən yaxşı respublikanın qurulması üçün çalışmasıni*" əsas götürür. [29] X.Volfa görə "*dövlətin əsas təyinatı ümumi rifaha nail olmaqdır*". F.Volter "*şəxsiyyət azadlığı, söz azadlığı*" məsələlərini, Ş.L.Monteskyö "*siyasi azadlıq və qanun arasında münasibətər, hakimiyyət bölgüsü*" məsələlərini işıqlandırırdılar, J.J.Russo "*ictimai müqavilə*"

---

[22] Хрестоматия по философии. / Под ред. Радугина А.А. Москва: Центр, - 2001. - 416 с.

[23] Александровский С. Возвращённый Рай / Александровский С. - Москва: Наука, - 2006. - 243 с.

[24] Путеводитель по английской литературе / Под редакцией М. Дрэблл и Дж. Стрингер. - Москва: Наука, - 2003. - 828 с.

[25] Барг М. А.Генезис идеологии истинных левеллеров // История социалистических учений: Сб. статей памяти акад. В. П. Волгина. - Москва: Наука, - 1964. - с. 149-198

[26] Барг М. А.Социальная утопия Уинстенли // История социалистических учений: сб. статей. - Москва: Издательство АН СССР, - 1962. - с. 58-88

[27] Мележик И.Н. Понятие, происхождение и природа государства в политическом учении Т. Гоббса // Актуальные проблемы истории политических и правовых учений. Москва: Цель, - 1990. - с. 104-122

[28] Хрестоматия по философии. / Под ред. Радугина А.А. - Москва: Центр, - 2001. - 416 с.

[29] Лейбниц Г. В. Сочинения: [в 4 томах]. - Москва: Мысль, т.2. – 1984. - 734 с.

təlimini təkmilləşdirdi. [30] XVIII yüzildə Avropada sosializm ideyaları genişlənməyə başladı. Onun görkəmli tərəfdarları olan Q.B.Mabli, Q.Baböf və başqaları əmin idilər ki, respublika quruluşu daha təkmil idarəetmə formasıdır. A.Smit "*maarifçi rasionalizm konsepsiyasını, mülkiyyəti və qanunları müdafiə edən ədalət*" ideyasını irəli sürürdü. [31] Görkəmli maarifçilər C.Viko, Ç.Bekkariya "*insan ləyaqəti, şəxsi azadlıq, ədalətli qanunlar*" kimi fikirləri inkişaf etdirirdilər və düşünürdülər ki, "*insan xoşbəxtliyinin əldə edilməsinə yönələn cəmiyyət ən yaxşı toplumdur*". [32] Bu dövrdə daha yaxşı dövlət idarəetmə forması, insan hüquq və azadlıqları, ümumi rifah və s. aid konsepsiyalar sırasında Avropa konservativizmi (D.Yum, L.fon Qaller, E.Byörk və başqaları) təkamüllü inkişafın tərəfdarı idi. XVIII – XIX yüzillərdə B.Franklin, T.Peyn, T.Cefferson, C.Adams, C.Medison, C.Marşall, T.V.Vilson və başqaları "*vətəndaş və dövlət münasibətləri, insan azadlığı, sosial inkişaf imkanları*" və s. ilə bağlı ideyaları inkişaf etdirmişdilər. Yeni dövr müəlliflərindən İ.Kant, İ.Fixtenin, V.Fon Humboltun və başqalarının əsərlərində insan azadlığı, ləyaqətli yaşam imkanlarının yaradılması, liberalizm ideyalarını tapmaq olar. XIX əsrdə sosializm quruluşu haqqında ideyalar marksizm cərəyanının əsas ideya istiqaməti kimi inkişaf etmişdir. K.Marks və F.Engels dövlət haqqında tarixi-materialist nəzəriyyənin banisi oldular. Bu zaman utopik sosializm və marksizm ideyaları geniş vüsət almışdı. İ.Bentam "*ümumi xoşbəxtlik*", C.S.Mill "*şəxsiyyət azadlığı*", B.Konstant "*fərdi azadlıq*", A.de Tokvil "*demokratik sosium, sosial bərabərlik, azadlıq*", V.V.Qumbolt və digər Qərb müəllifləri tərəfindən, insan-cəmiyyət-dövlət münasibətləri əhatəli təhlil edilməyə başlanmışdır.

---

[30] Хрестоматия по философии. / Под ред. Радугина А.А. - Москва: Центр, - 2001. - 416 с.

[31] Волгин В. П. Развитие общественной мысли во Франции. / Волгин В.П. - Москва: Издательство Академии Наук СССР, - 1958. - 403 с.

[32] Вико Дж. Основания новой науки об общей природе наций / Вико Дж. - Москва-Киев: REFL-book, ИСА, Port-Royal, - 1994. - 656 с.

Müxtəlif dövrlərdə L.fon Şteyn[33], Adolf Vaqner[34], Fridrix Nauman[35], C.Keyns[36], A.Briggs[37], Tom G. Palmer[38], S.Mosdorf[39], Riçard M.Titmuss[40], R.Darendorf[41] və digər Qərb tədqiqatçıları bu yöndə dərin tədqiqatlar aparmışlar.

Müasir dövrdə rusiyalı alimlərdən S.B.Kalaşnikov[42], A.F.Xramtsov[43], F.İ.Şarkov[44], V.Q.Belov[45], O.E.Bessonova[46],

---

[33] Кочеткова Л. Н. Теория социального государства Лоренца Фон Штейна / Кочеткова Л. Н. // Философия и общество, - Москва: - 2008. №3, - с. 69-79.

[34] Wagner Adolph. Speech on the Social Question (abridged), in Donald O. Wagner, ed. Social Reformers. // Adam Smith to John Dewey. - New York: Macmillan, - 1939. - pp. 489–506.

[35]Friedrich Naumann. What Does Christian-Social Mean? [Electronic resource] / URL: http://germanhistorydocs.ghi-dc.org/docpage.cfm?docpage_id=1158

[36]Фролова Т.А. История экономических учений / Фролова Т.А. - Таганрог: ТРТУ, - 2004. - 450 с.

[37] Briggs A. The Welfare State in Historical Perspective. Concepts and Issues // Archives Europeen nes de Sociologie, - Cambridge: - 1961. Volume 2, İssue 2, - p.221-258.

[38] Tom G. Palmer. After the welfare state. / Tom G. Palmer. - New-York: Printed in the United States of America, - 2012. - 192 p.

[39]Mosdorf S. New economy, new society // Wirtschaftswoche. Frankfurt. Moscow: - 2001. № 7, - pp. 26-32

[40]Richard M. Titmuss. WelfareStates: Construction, Deconstruction, Reconstruction I, 1974, 700 p.

[41]Дарендорф Р. От социального государства к цивилизованному сообществу / Дарендорф Р. // Полис (Политические исследования), - Москва: 1993. № 5, - с.31-35.

[42]Калашников С.В. Очерк теории социального государства. / Калашников С.В. - Москва: Экономика, - 2006. - 362 с.

[43] Храмцов А.Ф. Социальное государство: проблемы индикации / Храмцов А.Ф. // Государственная власть и местное самоуправление. - Москва: - 2007, № 2, - с.8-16.

[44]Шарков Ф.И. Основы социального государства: учебник / Шарков Ф.И. - Москва: Дашков и Ко, - 2012. - 314 с.

[45]Белов В.Г. Социальное государство и гражданское обществm / Белов В.Г. - М.: ФАЗИС, - 2009. - 74 с.

[46] Бессонова О.Э. Сущность социального государства в контексте общей теории институциональных трансформаций // Материалы Всероссийской

P.K.Qonçarov [47], S.Q.Dobryazko [48], S.V.Koptaşkin [49], L.N.Koçetkova[50], İ.V.Lenov[51], E.N.Naumova[52], A.E.Evsratov[53], L.S.Mamut[54], M.A.Dremanova[55], E.V.Oxotskiy[56], O.E.Poberejnaya[57] və başqaları sosial dövlətlə bağlı geniş araşdırmalar aparmış, sosial və sosial-hüquqi dövlətin inkişaf istiqamətlərini öyrənmişlər.

Ölkəmizdə bu yöndədə ilk olaraq, ümumilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sosial dövlət quruculuğu ilə bağlı müəyyən etdiyi konseptual

---

научной конференции «Россия: путь к социальному государству», - Москва: - 6 июня – 2008. - с. 249-263.

[47]Гончаров П.К. Социальное государство: сущность ,мировой опыт, российская модель // Социально-гуманитарные знания, - 2000. № 2, - с. 18-37.

[48]Дробязко С.Г. Соотношение правового государства и правового гражданского общества / Материалы Межд. науч.-практ. конф.: «Конституционно-правовые проблемы формирования социального правового государства», Минск: - 31 матра - 2000. - с. 386–390.

[49] Копташкин С.В. Социальное государство // Социальное государство и политика: сборник научных статей, - Москва: ФНИСЦ РАН, - 2017, - 268 с.

[50]Кочеткова Л. Н.Теория социального государства Лоренца Фон Штейна // Философия и общество, - 2008. №3, - с. 69-79.

[51]Леонов И.В., Социальное государство как предмет теоретико-правового исследования: / дис. канд юрид. наук / - Москва, 2006. - 156 с.

[52] Наумова Е.Н. Социальное государство в России: проблемы теории и практики: / дис. канд. юрид. наук. / - Владимир, 2006. - 149 с.

[53] Евстратов А.Э. Генезис идеи социального государства: историко-теоретические проблемы: / Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. / - Омск, 2005. - 25 с.

[54]Мамут Л. С. Социальное государство с точки зрения права // Государство и право, - 2001. № 7, - с. 5-14.

[55]Дреманова М. А. Россия — социальное государство? // Теория и практика общественного развития, - 2012. № 12, - с.573-574.

[56]Охотский Е.В. Социальное государство и социальная политика современной России: ориентация на результат / Е.В. Охотский, В.А. Богучарская // Труд и социальные отношения, - 2012. № 5(95), - с. 30-44.

[57]Побережная О.Е. Теория и практика социального государства // Минск: Научучные труды Акададемии управления при Президенте Республики Беларусь, - 2004. Вып. 4, - с. 302 – 309.

siyasətin əksini tapdığı elmi mənbələr qeyd edilməlidir. Müasir Azərbaycan özünün ən yeni tarixini sosial dövlət quruculuğu istiqamətində müəyyənləşdirib.[58] "Azərbaycan – 2020: gələcəyə baxış" inkişaf konsepsiyası və "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" sosial dövlət və milli inkişaf strategiyasının qarşılıqlı bağlılığını əks etdirən sənədlərdir.

Azərbaycanda bilavasitə sosial dövlət elmi əsaslarda öyrənilməsə də, onun mahiyyətindən çıxış edən tədqiqat işləri mövcuddur. Bu sırada akademik R.Mehdiyev[59], N.İ.Məmmədov[60], İ.R.Məmmədzadə[61], H.Rəcəbli, S.Y.Hüseynov[62], M.Məmmədov[63]

---

[58] 16 yanvar 2012-ci il tarixdə AR Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası. [Elektron resurs]. URL: http://www.president.az/articles/4098/print

[59] Mehdiyev, R.Ə. XXI əsrdə milli dövlətçilik / R.Mehdiyev. - Baki: XXI əsr – YNE, 2003. - 248 s.; Azərbaycanın inkişaf dialektikası. Baki: XXI əsr – YNE, - 2000. - 286 s.; Gələcəyin strategiyasını müəyyənləşdirərkən modernləşmə xətti. / R.Mehdiyev. - Bakı: Şərq-Qərb, - 2008. - 159 s.; Yeni siyasət: inkişafa doğru. [2 clilddə]. - Bakı: Oskar NPM, - I cild. – 2008. - 581 s.;. Yeni siyasət: inkişafa doğru. [2 cilddə]. / Mehdiyev R. - Bakı: Oskar NPM , - II cild. – 2008. - 343 s.; Azərbaycan: qloballaşma dövrünün tələbləri. / R.Mehdiyev. - Bakı: XXI əsr – YNE, - 2005. - 463 s.

[60] Məmmədov N. Qlobal miqrasiya böhranı: beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində / N.Məmmədov. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi nəşriyyatı, - 2018. - 307 s.

[61] Гражданское общество и национальная идеология: к философии политического процесса в Азербайджане / И.Р.Мамедзаде. - Баку:Муаллим, - 1995. - 53с.

[62] Hüseynov S.Y.Davamlı İnsan İnkişafının strateji istiqamətləri. / S.Y.Hüseynov. - Bakı: Adiloğlu, - 2003. - 264s.; Davamlı İnsan İnkişafı. / S.Y.Hüseynov. - Bakı: Azərbaycan Dövlət Aqrar Universiteti, - 2009. - 494 s.; Hüseynov S.Y. , Alıyev İ., Əsədov A. Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf. / S.Hüseynov, İ.Alıyev, A.Əsədov. -Bakı: Avropa, - 2013.- 475 s.

[63] Məmmədov M. III Respublika: Milli inkişaf modeli və strategiyası. / M.Məmmədov. - Bakı, - 2008. - 216s.

R.C.Əzimova [64], C.Əhmədli [65], T.B.Allahyarova [66], A.B.Rüstəmova[67], Z.B.Ağayeva[68], Ə.Qəşəmoğlu[69], Ə.S.Abasov[70], Ə.F.Abbasov[71], F.M.Qurbanov[72], A.X.Mustafayev[73], R.Hasanov [74] və başqa alimlərin əsərləri göstərilə bilər.

Akademik Ramiz Mehdiyev Azərbaycan dövlətinin müasir inkişafını "*milli iqtisadiyyatın liberallaşması prosesi*" kimi

---

[64] Азимова Р.Дж. Средний класс в обществе переходного периода. / Р.Дж.Азимова. - Баку: Текнур, - 2006. - 172 с.

[65] Əhmədli C. İctimai qanunlar, onların idrakı və istifadə edilməsi. / C.Əhmədli. - Bakı: Elm, - 1978. - 138 s.; Sosiologiyaya dair söhbətlər. / C.Əhmədli. - Bakı: Gənclik, - 1972.- 82 s.; Sosiologiyada ölçmə metodu. / C.Əhmədli. - Bakı: Elm, - 2001. - 157 s.

[66] Allahyarova T.B. Ekoloji mədəniyyət və ictimai tərəqqi. / T.B.Allahyarova. - Bakı: Elm, - 1994. - 172 s.; Sinergetika-I. Təbiətin vəhdətdə özünütəşkili. Sinergetik ontologiya. "Vəhdət fəlsəfəsi" seriyasından II kitab. / T.B.Allahyarova. - Bakı: Elm, - 2004.- 372 s.

[67] Rüstəmova A.B. Müasir dünya və Azərbaycan reallıqları. Fəlsəfi təhlil. / A.B.Rüstəmova. - Bakı: AFPoliqrAF, - 2017,.- 370s.

[68] Ağayeva Z.B. Национально-нравственные ценности и их роль в формировании и развитии независимого Азербайджана // Asia Minor Studies, - 2013. - s.23-32.

[69] Qəşəmoğlu Ə. Sosial idarəetmənin fəlsəfi və sosioloji problemləri. / Ə. Qəşəmoğlu - Bakı: Yazıçı, - 2008. - 264 s.

[70] Abasov Ə. S. Müasir dövrün sosiomədəni problemləri. / Ə.S.Abasov. - Bakı: Səda, - 2006.- 374 s.

[71] Abbasov Ə.F. Демократия: наличная и должная. / Ə.S.Abasov. - Баку: Текнур, - 2005. - 243 с.; Общество и государство. / Ə.S.Abasov. - Баку: Текнур, - 2007. - 217 с.; Milli maraqlar və milli ideologiya. / Ə.S.Abasov. - Bakı: Təknur, - 2012. - 240 s.

[72] Qurbanov F.M. Autopoyezis və sinergetika: sosial təşəkkül metaforaları**.** / F.Qurbanov. - Bakı: Adiloğlu, - 2007. - 484, [4] s.

[73] Мустафаев А.Х. Идеи государственной независимости в политическом наследии Гейдара Алиева // Материалы международной научной конференции "Взаимодействие культур и в условиях глобализации", - Москва, - 2010. - с. 62-64.

[74] Həsənov R.M. Sosial siyasət. / R.M.Həsənov. - Bakı: AVROPA, - 2016. - 310 s.; Формирование гражданского общества в условиях трансформации. / R.M.Həsənov. - Баку: Kitab aləmi, - 2003. - 432 с.;

səciyyələndirərək, "*Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin konservativ-liberal model*" (S.M. - ənənə əsasında millətin birliyi və fərdi azadlıq) olduğunu bildirmişdir.[75]

Fikirləri ümumiləşdirərək, Azərbaycanda mövcud sosial dövlət tiplərinin (sosial liberal, konservativ-korporativ, sosial-demokratik) müəyyən tərəflərini ehtiva edən modelin formalaşdığını deyə bilərik. Sosial dövlətin Azərbaycan modeli - fərdi azadlığı və şəxsi mülkiyyəti inkişaf etdirən, müasir sosial inkişaf imkanlarından çıxış edən, öz milli, dini adət və ənənələrini qorumağa yönələn, böhran və riskli vəziyyətlərdə yuxarıdan, rəsmi əsaslarda tənzimlənən dövlətdir. Azərbaycanda qurulan sosial dövlət modelinin səciyyəvi tərəflərindən biri bu dövlət quruluçunun aşağıdan – tarixi təkamülün nəticəsi olaraq deyil, yuxarıdan – qanuni əsaslarda realizə edilməsilə bağlıdır.

**Tədqiqatın obyektini** – milli inkişaf strategiyasında sosial dövlətin formalaşmasının inkişaf tendensiyaları təşkil edir.

**Tədqiqatın predmeti** – müasir sosial dövlətin inkişaf istiqamətləri kontekstində sosial dövlət quruculuğunun Azərbaycan modelinin araşdırılması ilə bağlıdır.

Tədqiqatın başlıca **məqsədi** sosial dövlətin milli inkişaf strategiyasında yeri və rolunun, Azərbaycan modelinin inkişafı xüsusiyyətlərinin müəyyənləşdirilməsidir. Məqsədə nail olmaq üçün tədqiqatla bağlı aşağıdakı **vəzifələrin** yerinə yetirilməsinə səy göstərilmişdir:

-sosial dövlətin mahiyyəti və genezisi məsələlərinin, həmçinin metodologiyasının tədqiqi;

-sosial dövlətin prinsipləri, funksiyaları və mexanizmlərinin müəyyənləşdirilməsi;

-sosial bazar iqtisadiyyatının formalaşmasında sosial dövlətin rolunun öyrənilməsi;

-hazırki sosial dövlət modellərinin müqayisəli təhlili;

---

[75] Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti / R.Mehdiyev. - Bakı,: Qərb-Şərq, - 2008. - 216s.

-sosial dövlətin Azərbaycan modelinin əsaslarının, inkişaf təmayüllərinin, nəzəri-ideoloji və konstitusion əsaslarının araşdırılması;

-ölkəmizin sosial siyasətinin reallaşdırılmasında sosial təsisatların rolunun, vətəndaşların əmək hüquqlarının təmin edilməsi istiqamətlərinin, sosial sığorta, səhiyyə, təhsil sistemlərinin, qaçqınlar və məcburi köçkünlər probleminin öyrənilməsi;

-Sosial dövlətin Azərbaycan modelinin özünəməxsus inkişaf istiqamətlərinin analizi;

- Azərbaycan Respublikasının milli inkişaf strategiyasında sosial dövlətin yeri və rolunun aşkara çıxarılması.

**Tədqiqat metodları**. Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin problemlə bağlı proqram xarakterli çıxışları, konseptual müddəaları, rəsmi dövlət sənədləri tədqiqatın nəzəri-metodoloji əsaslarını müüəyyənləşdirməyə əsaslı təsir etmişdir. Buradan irəli gələrək həmin sənədlərin məzmununun dünya təcrübəsi ilə müqayisəli təhlili kontent-analiz, komporativ-analiz metodlarından istifadəni zəruri etmişdir.

Həmçinin, tədqiqatda tarixilik və məntiqiliyin vəhdəti, nəzəri ümumiləşdirmə, analiz, sintez, induksiya, deduksiya və s. metodlar tətbiq edilmişdir. Dissertasiyanın təhlil predmetini elmlər arası xarakter daşıyan problem təşkil etdiyi uçün sosioloji, fəlsəfi, politoloji analizin ümumelmi prinsipləri əsas götürülmüş, bir sıra elmlərin nəzəri yanaşma və metodlarının sintezinə diqqət yetirilmişdir. Sosial dövlətə dair nəzəriyyə və konsepsiyaların təhlili üçün sistemli təhlil, müqayisəli sosioloji təhlil metodları faydalı olmuşdur. O cümlədən, müasir sosial dövlətin davamlı inkişafının təhlilini və mümkün böhranlı vəziyyətlərin idarə edilməsi imkanlarını təqdim edən yeni - sosial sinergetik institutlaşma konsepsiyasının tətbiqinə səy göstərilmişdir.

Mövzunun tədqiqi zamanı sosial proseslərin modelləşdirilməsi və formalaşdırılması, müşahidə və s. metodlar tətbiq edilərək,

aparılan sosioloji sorğunun nəticələri SPSS metodlar paketi vasitəsilə analiz edilmişdir.

Tədqiqatın empirik bazası Azərbaycan Respublikasının Statistika Komitəsinin məlumatları, o cümlədən sosial yönlü inkişafla bağlı təqdim edilən beynəlxalq statistik göstəricilər, Azərbaycanda aparılan sosioloji sorğunun nəticələrilə bağlı statistik informasiya üzərində qurulmuşdur.

**Müdafiəyə təqdim edilən başlıca müddəalar** aşağıdakılardır:

1.Sosial dövlət bəşər cəmiyyətinin dövlətçilik tarixində növbəti mərhələdir. Sosial dövlət sosial ədalətin və sosial bərabərliyin təminatını, sosial dayanıllığın qorunub saxlanmasını ehtiva edir.

2.Sosial dövlət şəxsi mülkiyyəti müdafiə edir və bu mənada bu dövlət quruluşunun ehtiva etdiyi sosial ədalət hər bir vətəndaşa bərabər imkanların yaradılmasını nəzərdə tutur. Burada bərabər imkanlar – hər bir şəxsin maddi və mənəvi inkişafına yaradılan bərabərliklə bağlıdır.

3.Sosial dövlət millətin və xalqın vəhdətinin təzahürü olub, şəxsiyyət – cəmiyyət – dövlət birgəyaşayışı prosesində özünüidarəetmə, özünütəşkilatlandırma, özünə yardım prinsiplərinə söykənir.

4.Sosial dövlət miqyasından aıslı olmayaraq (qlobal və ya lokal) sosial böhranlar şəraitində sosial həmrəyliyin, sosial məsuliyyətin və sosial dialoqun əldə edilməsinə yönəlir.

5.Sosial dövlətin başlıca amalı şəxsiyyət – cəmiyyət – dövlət münasibətlərində qarşılıqlı məsuliyyətin və əməkdaşlığın bərqərar olması ilə bağlıdır.

6. Sosial yönümlü bazar iqtisadiyyatı sosial dövlətin iqtisadi əsaslarını təşkil edir. Buradakı əmək münasibətləri sosial tərəfdaşlıq prinsiplərini ehtiva edir. Bütün iqtisadi münasibətər istehlakçı tələbatı və istehsalçı təklifi üzərində qurulur.

7. Sosial xidmət sahəsi sosial yönümlü bazar iqtisadiyyatının əsas istiqaməti kimi çıxış edir.

8. Qlobal böhranlar prosesi sosial dövlətin mənəvi-mədəni və sosial iqtisadi əsaslarında dəyişikliklərə gətirir. Böhranların idarə

edilməsi prosesində ilk növbədə şəsiyyətin sosial təhlükəsizliyinin təmin edilməsi və maraqlarının qorunması başlıca şərtə çevrilir.

9.Hazırda sosial dövlətin üç modeli – sosial-demokratik, konservativ-korporativ və liberal formaları daha geniş yayılmışdır. Bir çox dövlətlərdə bu modellərin qarşıq təzahürünə rast gəlinir.

10. Sosial dövlətin Azərbaycan modeli özündə hər üç modelin xüsusiyyətlərini daşıyır, lakin müəyyən parametrlərə görə ölkəmizdə milli əsaslı sosial-demokratik modelin bəzi göstəriciləri daha üstün mövqedədir.

11. Bütün dünyada olduğu kimi Azərbaycanda da sosial dövlət yenidən formalaşma mərhələsindədir. Bu isə sosial dövlətin innovativ isllahatçı xüsusiyyətini əks etdirir.

12. Azərbaycanda sosial dövlətin nəzəri-ideoloji və kostitusion əsasları formalaşmışdır. Azərbaycançılıq ideologiyası sosial dövlətin Azərbaycan modelinin nəzəri ideoloji mənbəyidir.

13.Azərbaycan Respublikasının Milli İnkişaf Strategiyası – Azərbaycançılıq ideologiyasını, həmçinin AR Konstitusiyasında möhkəmlənən sosial hüquqi bazanı, dövlətin inkişafı istiqamətlərini ehtiva edən bir çox hüquqi sənədləri, o cümlədən "Azərbaycan 2020 – gələcəyə baxış", Strateji yol xəritəsi, Böyük Qayıdış proqramı və s. özündə ehtiva edir.

14. Sosial dövlətin sosial siyasəti cəmiyyətin və şəxsiyyətin rifahının yüksəldilməsini əsas məqsəd kimi müəyyən etmişdir və burada sosial institutların fəaliyyətinin tənzimlənməsi mexanizmləri özünütəşkilatlandırma, özünüinkişaf, özünəyardım prinsipləri üzərində qurulmuşdur ki, bu da bir daha olaraq sosial xidmət sahələrinin inkişafına yönəlir.

**Tədqiqatın elmi yeniliyi** - ilk növbədə tədqiqat predmeti kimi seçilmiş mövzu, tədqiqatın məqsədi və vəzifələrilə bağlıdır. Dissertasiyanın digər yenilikləri aşağıdakılardır:

-sosial dövlətin milli inkişaf strategiyasında statusu, yeri və rolu Azərbaycanda ilk dəfə olaraq doktorluq dissertasiyası səviyyəsində təhlil edilmişdir;

-sosial dövlətin inkişaf dinamikasının təhlili ilə bağlı “sosial sinergetik institutlaşma” konsepsiyası aspektində yeni metodoloji yanaşma tətbiq edilmişdir;

- sosial həmrəylik, sosial məsuliyyət və sosial əməkdaşlıq dövlət–cəmiyyət–vətəndaş münasibətlərinin mənəvi-mədəni təməlləri kimi səciyyələndirilmişdir;

- qlobal transformasiyaların sosial dövlət modelinin inkişafına təsiri məsələləri araşdırılmış, səbəb və göstəriciləri təqdim edilmişdir;

- XX əsrdə Azərbaycanda sosial yönlü dövlət quruculuğu mərhələləri və xüsusiyyətləri izlənilmiş, fərqli cəhətləri səciyyələndirilmişdir. Azərbaycanda sosial dövlət quruculuğu təcrübəsinin və sosial dövlətin Azərbaycan modelinin elmi şəkildə təqdimi və əsaslandırlmasına cəhd edilmişdir;

- Sosial dövlətin Azərbaycan modeli - fərdi azadlığı və şəxsi mülkiyyəti inkişaf etdirən, innovasiya meylli, həmçinin öz milli və dini adət və ənənələrini qorumağa yönələn, böhran və riskli vəziyyətlərdə dövlətin müdaxiləsi ilə tənzimlənən sosial-siyasi qurum, **milli sosial-demokratik model** olaraq müəyyənləşdirilir;

- “sosial identiklik – vətəndaşlıq” amilinin əsaslandığı azərbaycançılıq ideologiyası ölkəmizdə sosial dövlət quruculuğunun nəzəri-ideoloji əsasları kimi müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Araşdırmanın nəticələri elmi-nəzəri və tətbiqi xarakterə malikdir. İşin **nəzəri əhəmiyyəti** problemə yeni elmi-metodoloji yanaşma, faktiki mənbələrin və məlumatların yeniliyi ilə müəyyən edilir. Dissertasiyadan əldə edilmiş müddəalardan müasir sosial dövlətçilik problemlərinin tədqiq olunmasında faydalanmaq mümkündür. Dissertasiya işinin **praktik əhəmiyyəti** tədqiqatın nəticələrinin dövlət idarəetmə orqanlarının sosial dövlətə yönələn fəaliyyət istiqamətlərinin dəqiqləşdirilməsində, tədris müəssisələrinin müvafiq kurslarında istifadə edilməsinin mümkünlüyü ilə əlaqəlidir. Tədqiqat işi analitik materialların hazırlanması, vətəndaşların maariflənməsi üçün mənbə ola bilər, həmçinin sosiologiya, fəlsəfə, politologiya və

s. fənlərin tədrisində, metodiki vəsaitlərin yazılmasında, elmi-tədqiqat işlərində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Tədqiqatın əsas müddəaları və nəticələri müəllifin 2 monoqrafiyasında, 26 yerli və 9 xarici nəşrlərdə çap edilmiş elmi əsərlərində, 12 beynəlxalq konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır. Bakı Dövlət Universitetində "Siyasi sosiologiya" üzrə magistratura kursunda "İnkişaf etmiş ölkələrdə siyasi məktəb və cərəyanlar" fənninin tədrisi prosesində dissertasiyanın əsas nəticələrinin əks olunduğu monoqrafiyalardan istifadə edilir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı** – Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun "Sosiologiya" şöbəsi.

## DISSERTASIYA İŞININ ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, müddəa və fərziyyələri irəli sürülür, işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsədi və vəzifələri müəyyənləşdirilir, predmeti və obyekti göstərilir, elmi yeniliyi təqdim olunur, nəzəri-metodoloji, praktiki-əhəmiyyəti, sənədlər bazası, aprobasiyası və strukturu göstərilir.

Tədqiqat işinin I Fəsli "**Sosial dövlət: mahiyyəti, genezisi və metodoloji əsasları"** adlanır.

"Sosial dövlət: prinsipləri, funksiyaları və mexanizmləri" başlıqlı birinci yarımfəsildə "sosial dövlət" anlayışının əsasları araşdırılır, "sosial", "dövlət", "hüquqi dövlət", "sosial hüquqi dövlət", "sosial dövlət" və digər anlayışların məzmununun açılmasına cəhd edilir. Sosial dövlətin nəzəri əsaslarının araşdırılması aşağıdakı ümumiləşdirmələrə imkan verir: I. Sosial dövlət ideyası XIX yüzillikdə formalaşıb və bir əsr sonra hüquqi əsaslarda təsdiqlənib, XX yüzilliyin sonu – XXI yüzilliyin başlanğıcında reallaşmağa başlamışdır. II. Müasir sosial dövlətlər insanların firavan yaşayışına zəmanət prinsiplərinə əsaslanan sosial siyasəti gerçəkləşdirir. Bu sosial siyasət sosial ədalətin, sosial əməkdaşlığın, sosial məsuliyyətin, sosial həmrəyliyin bərqərar olmasını və bu

əsasda insanların sosial müdafiəsini, sosial təminatını nəzərdə tutur. III. Sosial dövlətin inkişaf strategiyası fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə yönəlir. Sosial dövlət hüquqi vətəndaş cəmiyyətini ehtiva edir və burada heç bir sosial qeyri-bərabərliyə və ayrıseçkiliyə yol verilmir, vətəndaşlar sosial, siyasi, iqtisadi, mənəvi və mədəni proseslərdə bərabər iştiraka cəlb edilirlər. Sosial dövlət konsepsiyasının geniş vüsət almasının səbəbi insanların rifahının yüksəldilməsinin, cəmiyyətin ahəngdar, hərtərəfli inkişafının başlıca məqsəd hesab edilməsidir və bu gün sosial dövlət quruculuğu çoxsayda dövlətlərin prioritetinə çevirmişdir. Sosial dövlətin fəaliyyəti və prinsipləri bilavasitə demokratiya, vətəndaş cəmiyyəti, insan azadlıqları və bərabərlikləri kimi ictimai təzahürlərlə bağlıdır. Sosial dövlət quran ölkələrin siyasəti sosial yönümlü olub, hüquqi əsaslarda öz təsdiqini tapmışdır. Dövlətçilik tarixinin təkamülü baxımından sosial dövlət hüquqi dövlətin inkişafında yeni mərhələdir. Müasir dövlətlər sosial dövlətin hüquqi əsasları ilə bağlı optimal yollar axtarırlar. Belə ki, tarixən hüquqi dövlətlər sosial siyasətə malik olub, lakin sosial dövlətin daxili və xarici siyasəti bilavasitə insanların firavan yaşayışının təminatı ətrafında müəyyənləşir.

Birinci fəslin ikinci yarımfəsli **"Sosial dövlət konsepsiyasının inkişaf tarixinə ekskurs"** başlıqlıdır. XIX yüzilin ortalarından dövlətin sosial funksiyaları inkişaf etməyə başladı. Bu inkişaf həmin dövrdə L.fon Şteynin (1815 - 1890) sosial dövlət konsepsiyasını yaratmasına gətirdi. Onun sosial dövlət nəzəriyyəsi Hegelin fəlsəfəsinin, fransız sosial demokratlarının doktrinalarının təsiri altında və Almaniyada kapitalizmin inkişafı imkanlarının və sinfi mübarizənin analizinin nəticəsi kimi formalaşmışdı. L.fon Şteynə görə "*sosial dövlət – bütün ictimai siniflərin və şəxsiyyətlərin tam hüquqi bərabərliyini ehtiva edir*".[76] Sonrakı dövrlərdə A.Vaqner, F.Naumann, C.Keyns, P.A.Samuelson, C.Helbreyt, L.Lerner,

[76] Гончаров П.К. Социальное государство: сущность, мировой опыт, российская модель // Социально-гуманитарные знания. – 2000. N 2. - с. 18-37.

S.Harrison, R.Darendorf, K.Xasse, T.X.Marşal, T.Parsons, K.Marks, F.Engels, A.Briggs və başqaları sosial dövlət konsepsiyasının inkişafında əsas ideya daşıyıcıları olmuşlar. [77] XXI yüzilin əvvəllərində sosial dövlətin böhranı problemi səsləndirilir. P.Rozanvallon, L.S.Mamut, O.Tofler, B.Vexner, Q.Brant, F.Hayek, Q.Ritter, K.Pirson, H.Habeçmann, V.P.Miletski və digər müəlliflər bu istiqamətdə araşdırmalar etmişlər. Tədqiqatçılar sosial dövlətin böhranını aşağıdakı amillərlə bağlayırlar: "*1.Həmrəyliyə əsaslanan sığorta sisteminin ümumi böhranı. 2.Artan sosial təsisatların genişlənməsi ilə biznesdə vergi yüklərinin azalması zərurəti arasında yaranan ziddiyyətlər. 3.Vergi ödəyiciləri ilə sosial imtiyazları olanların sayı arasındakı fərqlərin genişlənməsi. 4.XX yüzilin 80-90-cı illərində istehsalın modernləşdirilməsinin sürətləndirilməsi nəticəsində sosial himayənin ləğv olunması və 60-cı illərə dair sosial müqavilənin pozulması*".[78]

Əslində sosial dövlət nəzəriyyəsi üçüncü yol ola bilər, o əsas vəzifəsi cəmiyyətdəki mövcud ziddiyyətlərin dövlət tərəfindən yumşaldılması, sosial təminatın, layiqli yaşayış və sərbəst inkişaf imkanlarının təşkili, təbəqələrin maraqlarının tarazlı təminatı və dağıdıcı inqilabi proseslərdən kənarlaşmaqla bağlıdır.

"**Sosial dövlət quruculuğunun metodoloji əsasları"** adlı üçüncü yarımfəsildə sosial dövlətin inkişaf meyillərinin müəyyənləşdirilməsi üçün institutlaşma və sosial sinergetik yanaşmaları özündə inteqrasiya edən yeni "sosial sinergetik institutlaşma (təşkilatlanma)" konsepsiyası təqdim edilir, sosial dövlətin inkişaf imkanlarının müəyyənləşdirilməsi istiqamətindəki əhəmiyyəti açıqlanır. "Sosial sinergetik institutlaşma"nın tədqiqatın metodoloji əsasları kimi təyin edilməsi səbəbləri aşağıdakılardır: 1. Sosial dövlətin inkişaf xüsusiyyətlərinin şərhi və

---

[77] Briggs A. The Welfare State in Historical Perspective. Concepts and Issues // Archives Europeen nes deS sociologie. – 1961. 2 (2), - p.221-258.

[78] Калашников С.В. Очерк теории социального государства. / С.В.Калашников - Москва: Экономика, - 2006. - с. 67-68.

proqnozlaşdırılmasına yönələn Sosial sinergetik institutlaşma mürəkkəb sistemlərin yüksəliş imkanlarını dəqiq müəyyənləşdirmək və əvvəlcədən proqnozlaşdırılmış nəticələrə nail olmaq imkanları açır. 2. Sosial sinergetik institutlaşma sosial institutların müəyyən tarixi məqamlarda seçim etmək imkanlarını nəzərə almağa kömək edir. Bu özünütənzimləmə və özünütəşkilatlandırma və kritik anda sosial institutların tənəzzülünün qarşısının alınması ilə əlaqəli çox vacib məqamdır. Sosial sinergetik yanaşma sosial institutlar üçün bifurkasion inkişaf və uyğun attraktanın seçilməsi xaosun, böhranlı şəraitin idarə olunması imkanlarını yaradır. Belə halda mürəkkəb sosial sistem olan dövlət və həmçinin onun alt sistemləri olan sosial institutlar ayrılıqda özlərini mühafizə edə bilirlər.

Sosial dövlətlə bağlı aparılan ilkin konseptual araşdırmaların ümumi şərhinə əsasən demək olar ki, dövlət–cəmiyyət–şəxsiyyət münasibətlərinin tərəqqisi müasir sosial dövlətin əsas amalı olsa da, inkişaf göstəricisi iqtisadi amillə müəyyən edilir və sosial dövlətdə bilavasitə sosial siyasətlə bağlı istehsal münasibətlərinin inkişafı zəruri şərtdir. Sosial dövlət tarixən mövcud olmuş daha təkmil dövlət forması kimi bütün vətəndaşların sosial müdafiəsinə yönəlir.

Dissertasiya işinin ikinci fəsli **"Müasir dövrün sosial dövlət modelləri"** adlanır. Bu fəslin birinci yarımfəsli "**Sosial dövlətin liberal modeli"** adlanır. Sosial dövlətin klassik tədqiqatçılarından C.Espinq-Andersen onun üç modelini təqdim edir: "*sosial dövlətin liberal, yaxud neoliberal tipi; sosial dövlətin mühafizəkar-korporativ tipi; sosial dövlətin sosial-demokratik tipi*". [79] Liberal model sosiumun üzvlərinin öz taleyinə və öz ailəsinin taleyinə görə şəxsi cavabdehliyə malik olması prinsipindən çıxış edir. Bu modeldə dövlətin rolu zəifdir, sosial proqramlar ilk növbədə özəl sığorta və şəxsi maddi imkanlarla maliyyələşir. Dövlətin vəzifəsi vətəndaşların şəxsi gəlirlərinin artırılmasını stimullaşdırmasıdır. Bu model ABŞ-da,

[79]Охотский Е.В. Социальное государство и социальная политика современной России: ориентация на результат // Труд и социальные отношения. - 2012. № 5 (95). -с. 30-44.

İngiltərədə və s. tətbiq edilir. Burada yeni tipli bazar iqtisadiyyatı "*xüsusi mülkiyyət, liberal əmək etikasının təsiri altında formalaşır*". Modelin mövcudluğunun əsas şərti "*dövlətin bazar münasibətlərinə minimum qoşulması, dövlət tənzimlənməsinin məhdud tətbiq olunmasıdır*".

İkinci fəslin ikinci yarımfəsli **"Sosial dövlətin korporativ-konservativ modeli"** adlanır. Bu yarımfəsildə korporativ-konservativ modelin Almaniya və Yaponiya nümunələri araşdırılır. Konservativ-korporativ sosial dövlətin əsas xüsusiyyətləri aşağıdakılardır: "*1.Cəmiyyətin həyatında dinin əsaslı təsiri ideyası; 2.Dövlətin müdaxiləsinin azalması; 3.Ailə və ənənəvi dəyərlərin, cəmiyyətdə qayda-qanunun qorunub saxlanması; 4.Dəyərlərin, milli ənənələrin sosial-siyasi institutlara, siyasi prinsiplərə uyğunlaşması*".

İkinci fəslin üçüncü yarım fəsli **"Sosial dövlətin sosial-demokratik modeli"** adlanır. Bu yarım fəsildə sosial-demokratik sosial dövlət modelinin İsveç nümunəsi təqdim edilir. Sosial dövlətin sosial demokratik modeli iqtisadi sosiallaşma tələb edir. Espinq Anderson yazır: "*Bu model bazarı sıxışdırır, universal həmrəyliyi tənzimləyir. Hamı qalibdir, hamı asılıdır və hamı özünə görə ödəməyi borc bilir. Dövlətlə bazarın, fəhlə sinfi və orta sinfin dualizminə dözmək üçün sosial demokratlar minimal deyil, ali standartlar səviyyəsində bərabərliyə yönəlmiş sosial dövlət formalaşdırmaq məqsədi daşıyırlar*".[80] Modelin iqtisadi əsasları səmərəli istehsal, tam məşğulluq, işəgötürənlərlə həmkarlar ittifaqlarının güclü birliyi, ictimai məhsulun yüksək səviyyəli yenidən bölgüsü üzərində qurulur. Bu yarımfəsildə sosial demokratik dövlətin İsveç modeli araşdırılır. İsveçdə sosial dövlətin tərəqqisində mənəvi amillərin üstünlük təşkil etməsi fikrini söyləmək olar. Burada mənəvi-əxlaqi amillər kimi şəxsi azadlıq, sosial həmrəylik, sosial sabitlik, sosial ədalət və sosial bərabərlik, islahatlı inkişaf məsələlərinə, o cümlədən cəmiyyətin özəyi olan ailələrə və uşaqlara xüsusi qayğı göstərilməsinə diqqət

---

[80]Costa Esping-Andersen. The three worlds of welfare capitalism. Princeton / Costa Esping-Andersen. - Princeton NewYersey: University Press, - 1993. - p.27-28.

çəkilir. Belə demək olar ki, İsveç hökuməti cəmiyyətə üzvü varlıq kimi yanaşaraq, sosial təkamül vasitəsilə tərəqqiyə yönəlmişdir və məhz ümuminin (sosiumun) problemlərini xüsusi (individ) və xüsusinin problemlərini ümumi əsaslarda görərək, həll etməyə səfərbər olmuşdur.

Dissertasiya işinin üçüncü fəsli "**Müasir sosial dövlətin inkişaf perspektivləri (dünyada və Azərbaycanda)**" mövzusunun araşdırılması ilə bağlıdır. Bu fəslin ilk yarımfəsli **"Sosial həmrəylik və sosial məsuliyyət dövlət-cəmiyyət-vətəndaş münasibətlərinin təməl əsasları kimi"** adlanır. Burada sosial dövlətin mənəvi əsaslarını təşkil edən sosial həmrəylik, sosial ədalət, sosial dialoq və bu əsasda yaranan sosial məsuliyyət, tərəfdaşlıq və əməkdaşlıq məsələləri araşdırılır, qarşılıqlı asılı amillər kimi sosiumda sosial sabitliyin və tərəqqinin davamlılığına zəmanət verdiyi göstərilir.

Bu fəslin ikinci yarımfəsli **"Sosial dövlət və sosial yönümlü bazar iqtisadiyyatı"**adlanır. Ölkəmizdə "*sosial yönümlü bazar iqtisadiyyatı*" modelinin formalaşmasının əsasları tədqiq edilir və belə nəticə çıxarılır ki, ayrı-ayrı ölkələrin inkişaf modelləri qlobal və lokal xüsusiyyətlərdən təsirləndiyi üçün mütləq digərlərindən fərqlidir və özündə Qərb ölkələrinin təsərrüfat ənənələrini birləşdirir, belə ki, Azərbaycan Avropa İttifaqının sosial siyasət proqramına qoşulub və burada bazar iqtisadiyyatının hüquqi əsasları beynəlxalq qanunlara söykənir.

Bu fəslin üçüncü yarımfəslində "**Müasir dünya sistemindəki dəyişikliklərin sosial dövlətin mənəvi-mədəni və sosial iqtisadi əsaslarına təsiri"** məsələləri araşdırılır. XX yüzilliyin ortalarından bəşəriyyət qarşısıalınmaz qloballaşma ilə üzləşmişdir. Müasir qloballaşmanın özünəməxsusluğu həm tərəqqinin, həm də tənəzzülün qlobal miqyaslı olmasıdır. Müasir qlobal böhranın əsas xüsusiyyəti onun yalnız iqtisadi sahə ilə kifayətlənməyib, digər sahələrə də nüfuz etməsi, siyasi, mədəni və mənəvi tənəzzülə gətirməsi ilə əlaqəlidir. Müasir qloballaşmanın əsas xüsusiyyələrindən birinə çevrilmiş miqrasiya prosesləri depopulyasiyanın dərinləşməsinə və etnoslararası münasibətlərin kəskinləşməsinə, dini və mədəni

tolerantlıq məsələlərinin aktuallaşmasına səbəb olmuşdur. Miqrasiya böhranı sosial dövlətin tənqid edilməsinə gətirən problemlərin genişlənməsinə səbəb olmuşdur. Sosial dövlət qurumunun qlobal deyil, məhz lokal xarakterli olması sosial böhranların qlobal xarakter almasının əsas mənbəyi kimi çıxış edir, yəni dünya sisteminin daha zəif dövlətlərində baş verən dəyişikliklər beynəlxalq münasibətlərə təsir edərək, lokal inkişaf imkanlarını zədələyir. Əgər qlobal sosial dövlət formalaşarsa, yəni dünya sisteminin tərəqqisi bu idarəetmə əsasında müəyyənləşərsə, qarşılıqlı fəaliyyətin mümkünlüyü problemlərin lokal səviyyədə qarşısının alınmasına yol aça bilər.

Dissertasiya işinin dördüncü fəsli **“Azərbaycanda müasir sosial dövlətin nəzəri-ideoloji və konstitusion əsasları”** adlanır. Bu fəslin birinci yarımfəsli “**Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideoloji əsasları”**nın müəyyənləşdirilməsinə yönəlib. Bu məqsədlə XX yüzildə ölkəmizin inkişaf tarixinin ideoloji əsaslarının araşdırılmasına cəhd edilib. XX yüzildə Azərbaycanda sosial dövlət konsepsiyasının əsaslarının formalaşmasını şərti olaraq: 1918-1920-ci illər; 1920-1970-ci illər, 1970-1988-ci illər və nəhayət, müstəqilliyin bərpası mərhələlərinə bölmək olar. 1988–1993-cü illər ölkə tarixində hakimiyyət dəyişiklikləri ilə müşayiət olunan keçid dövrü kimi xarakterizə edilə bilər. XXI yüzilliyin ilk onilliyindən başlayaraq sosial dövlət dünyada və Azərbaycanda yeni təkamül mərhələsinə qədəm qoydu. Müstəqilliyin bərpa edilməsindən sonra ölkəmizdə sosail dövlətin iki inkişaf mərhələsini fərqləndirmək mümkündür: 1. Sosial dövlətçiliyə keçid dövrü – 1993-2003-cü illər; 2. Sosial dövlətin inkişafı və möhkəmləndirilməsi dövrü – 2003-cü ildən sonra davam edən mərhələ. Müasir dövrdə Azərbaycanda modernləşmə prosesinin növbəti mərhələsi müşahidə olunur və bu mərhələdə mənəvi-əxlaqi dəyərlərin transformasiyası nəzərə çarpır. Bu transformasiya azərbaycançılıq ideologiyasının və bu ideologiyanın multikulturalizm istiqamətinin təbliği və təşviqi ilə bağlıdır. Məhz neokonservativizmə əsaslanan azərbaycançılıq ideologiyası

Azərbaycanda yaranan sosial dövlətin mahiyyətinə özünəməxsusluq verir və fərqli sosial dövlət modelinin yaranmasına şərait yaradır.

Bu fəslin ikinci yarımfəsli **"Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsasları"** mövzusunun araşdırılmasına yönəlib. Burada Azərbaycan Respublikasının Konstitusiyasında, o cümlədən ölkədə qəbul edilmiş bir sıra qanun və sənədlərdə sosial siyasət məsələlərinin hüquqi əsasları təhlil edilir. Bu yarımfəsildə Azərbaycan Respublikasının Dövlət büdcəsinin xərcləri haqqındakı 2014 – 2019-cu illər arasında qəbul edilən qanuni sənədlər araşdırılır. Vurğulanır ki, Sosial dövlətin konstitusion əsaslarının formalaşması sosial inkişafla bağlı qəbul və tətbiq edilən qanun layihələri və dövlət proqramlarında öz əksini tapır. Bu istiqamətdə əsas diqqət qeyri-neft sektorunun və regionların inkişafına yönəldilir. Büdcə xərcləri də əsasən bu istiqamətlərə uyğun müəyyən edilir. 1995-ci ildən etibarən hökumət makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatda dəyişikliklər etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində bir sıra proqramlar hazırlamış və həyata keçirmişdir. Azərbaycan hökuməti sosial dövlətin mahiyyəti ilə bağlı olan sahələrin inkişafını Azərbaycanda sosial dövlət quruculuğunun prioritet istiqamətləri kimi müəyyənləşdirərək, qanuni əsaslarda möhkəmləndirir və proqramlı şəkildə həyata keçirir.

Bu fəslin üçüncü yarımfəsli **"Milli İnkişaf Strategiyası Azərbaycanda sosial dövlət quruculuğunun əsası kimi"** adlanır. Burada İlham Əliyevin Azərbaycan Republikasının Prezidenti seçildiyi 2003-cü il Azərbaycanda sosial dövlətin yeni tərəqqi mərhələsinin başlanması kimi xarakterizə edilir. Ümummilli lider Heydər Əliyevin təşəbbüskarı olduğu milli inkişaf strategiyasını reallaşdıran İlham Əliyevin idarəçiliyi innovasion islahatlara meyllidir. Azərbaycan Respublikasının milli inkişaf perspektivlərinin istiqamətləndirilməsi, "ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin" yaradılması məqsədilə "Azərbaycan 2020-gələcəyə baxış" inkişaf konsepsiyası və "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə

Strateji Yol Xəritəsi" qəbul edilmişdir. 2016-cı ilin 25-27 sentyabrda BMT-nin Dayanıqlı İnkişaf Sammitində "Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi"ni rəhbər tutaraq, müvafiq sənəd təsdiq edilmişdir. Bu sənədlər Azərbaycan Respublikasının Milli inkişaf strategiyasının əsasları kimi müəyyən edilə bilər.

Azərbaycanın Milli inkişaf Strategiyasında sosial dövlət quruculuğu modelinin xüsusiyyətləri belə səciyyələndirilə bilər:1.Modelin cəmiyyətin tələblərinə və qloballaşma dövrünün çağırışlarına uyğunlaşması, çevik sosial innovasiya islahatlarının aparılmasına qabil olması onun səmərəliliyin əsas göstəricisidir; 2. Sosial siyasətin tətbiqi və tənzimlənməsində dövlətin aparıcı və müdaxiləçi rola malik olması, sosial dinamikanın pozitiv təmayülü; 3. Dövlət sektorunun milli iqtisadi sistemin sosial yönümlü quruculuğunda əhəmiyyətli yerinin olması; 4.Sosial siyasətin güclü hüquqi-qanunverici əsaslara söykənməsi və innovasiya yönümlü olması; 5.Yeni sosial identiklik – vətəndaşlıq modeli kimi azərbaycançılığın formalaşması.

Dissertasiya işinin sonuncu beşinci fəsli **"Azərbaycanda sosial dövlət quruculuğu istiqamətləri"** adlanır. Beşinci fəslin birinci yarımfəsli **"Azərbaycan Respublikasının müasir sosial siyasəti mövcud sosial institutların tənzimlənməsi mexanizmləri kimi"** adlanır. Milli inkişaf strategiyasının əsas tətbiqedici vasitləri olan sosial institutların mahiyyəti və təyinatı təhlil edilir. AR Milli Məclisi və ona daxil olan dövlət strukturları, AR icrahakimiyyəti və ona daxil olan dövlət strukturları, həmçinin AR Məhkəmə hakimiyyəti və ona daxil olan dövlət strukturları, Yerli özünüidarəetmə hakimiyyəti olan bələdiyyələr və ona daxil olan dövlət strukturları dövlətin rəsmi sosial təsisatları, QHT-lər, maraq qrupları, lobbilər və digər təşkilatlar isə ictimai əsaslı sosial institutlar kimi müəyyən edilir. Bu paraqrafda ölkəmizdə sosial sığorta, pensiya, səhiyyə, təhsil sistemlərinin inkişaf istiqamətləri, həmçinin QHT, lobbi və maraq qruplarının fəaliyyət yönləri araşdırılır.

Beşinci fəslin ikinci yarımfəsli **"Böyük Qayıdış proqramında qaçqınlar və məcburi köçkünlər probleminin həlli istiqamətləri"**nin analizinə həsr olunmuşdur. Burada Azərbaycanda qaçqınlar və məcburi köçkünlər məsələsinin həlli istiqamətləri, onlarla bağlı tətbiq edilən imtiyazlar, onların yaşayış keyfiyyətinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkün qəsəbələrinin yaradılması və s. məsələlər geniş analiz edilir. 27 sentyabr – 8 noyabr Vətən müharibəsində əldə edilən qələbədən sonra Böyük Qayıdış proqramının tətbiqi istiqamətləri, qaçqın və məcburi köçkünlərin statusunun ləğvi ilə bağlı fəaliyyət istiqamətləri şərh edilir.

Bu fəslin üçüncü yarımfəsli "**Sosial dövlətin Azərbaycan modeli"**nin müəyyənləşdirilməsinə və əsasən Azərbaycanda sosial dövlətin müasir quruculuq mərhələsinin – prezident İlham Əliyevin hakimiyyəti dövründə sosial dövlətin inkişaf perspektivlərinin araşdırılmasına yönəlmişdir. Müstəqillik əldə edilməsi, siyasi stabillik yaradılması və dayanıqlı inkişaf strategiyasının istiqamətlərinin müəyyənləşdirilməsi Azərbaycanda sosial yönümlü dövlət quruculuğunu prioritet məsələyə çevirmişdir. Dövlət yaşayış keyfiyyətinin və firavan həyatın təminatını sosial siyasətin aparıcı istiqaməti kimi müəyyənləşdirmişdir. Azərbaycanda sosial dövlətin ən yeni dövr mərhələsinin təhlili sosial dövlətin Azərbaycan modelinin özünəməxsusluğunu açmağa kömək edir. Azərbaycanda qurulan sosial dövlətin aparıcı meyllərindən biri əhaliyə yüksək səviyyəli sosial xidmətin təmin edilməsilə bağlıdır. Bu məqsədlə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistemdə birləşdirən "ASAN xidmət" mərkəzləri yaradılmışdır. [81] Mehriban Əliyevanın təşəbbüsü ilə sosial

[81] Həsənov Ə. On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi. [Elektron resurs]/ AzərTac 12.10.2018. URL: https://azertag.az/xeber/On_bes_illik_prezidentlik_dovrunun_mohtesem_zefer_salnamesi-1203473

xidmətlərin vahid mərkəzdən operativ və şəffaf şəkildə idarə olunması üçün ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə "DOST” (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və "DOST” mərkəzlərinin yaradılmasına başlanılıb.[82]

Sosial dövlətin Azərbaycan modeli - fərdi azadlığı və şəxsi mülkiyyəti inkişaf etdirən, innovasiya meylli, həmçinin öz milli və dini adət və ənənələrini qorumağa yönələn, böhran və riskli vəziyyətlərdə dövlətin müdaxiləsi ilə tənzimlənən sosial-siyasi qurumdur. Sosail dövlətin Azərbaycan modeli **milli sosial-demokratik model** olaraq müəyyənləşdirilir.

Dissertasiyanın “**Nəticə**” hissəsində tədqiqata yekun vurulmuş, ayrı-ayrı fəsillərdə araşdırılmış məsələlərə dair başlıca qənaətlər ümumiləşdirilmiş, müəyyən tövsiyə və təkliflər öz əksini tapmışdır. Tədqiqatın yekunlaşdırılmasından əldə edilən qənaətlər belədir:

1.Sosial dövlət bəşər cəmiyyətinin dövlətçilik tarixində növbəti mərhələdir. Sosial dövlət sosial ədalətə və bərabərliyə zəmanət verilməsini, sosiumda sosial dayanıqlılığın qorunub saxlanmasını başlıca amal kimi müəyyənləşdirir.

2.Sosial dövlət şəxsiyyət – cəmiyyət – dövlət münasibətlərində qarşılıqlı məsuliyyətin və əməkdaşlığın bərqərar olmasına yönəlir.

3.Sosial dövlətin əsas meyarları vətəndaş cəmiyyətinin tərəqqisi, dövlət və qeyri-hökumət əsaslı sosial təsisatların birlikdə cəmiyyətyönlü funksiyalaşması, sosial səbatlığın qorunub saxlanması, sosial yönlü bazar iqtisadiyyatının funksiyalaşmasının təkmilləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının mühafizəsi, sosial təhlükəsizliyə zəmanətlə bağlıdır.

4.Sosial dövlətin mahiyyəti onun təkamül tendensiyasına malik olduğunu göstərir. Təkamül prosesinin qəbul edilməsi sosial dövlətin tərəqqisi gedişində təzahür edən çətinliklərin,

---

[82] İsmayılov S. Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir // Azərbaycan. – 2019, 9 fevral, s.1

ziddiyyətlərin yeni mərhələyə keçid prosesinin aparıcı amilləri kimi qiymətləndirilməsinə gətirir. Sosial münaqişələr, sosial böhranlar və sosial xaos hər zaman yeni dirçəlişin mənbəyi olub.

5. Sosial dövlətin inkişafı innovasion təmayüllü strateji qərarların qəbulu zərurətini yaradır. Bu zaman Milli innovasiya sisteminin mükəmməlləşdirilməsi əsas zəminə çevrilir. Milli innovasiya sisteminin inkişafı "*bütün maraqlı tərəflərin (biznes, elm, dövlət, vətəndaş cəmiyyəti) iştirakını nəzərə alan... əlavə resursların cəlb edilməsinə, elmi-texnoloji, innovasion inkişaf sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsinə yönələn*" texnoloji platformanın yaradılmasını tələb edir. Texnoloji platformalar iqtisadiyyatın sosial yönümlü innovasion inkişafını nəzərdə tutmalıdır.

6.Sosial dövlətin tərəqqisi ideyası qloballaşma prosesi və buradan doğan və bütün sosial sahələri bürüyən böhranların önlənməsinə istiqamətləndirilmiş sosial innovativ iqtisadiyyatın formalaşdırılması tələbatını aktuallaşdırır. Sosial innovativ iqtisadiyyat sürətli adaptasiya olunmaq xüsusiyyətlərinə və imkanlarına yiyələnməlidir. Sosial tərəqqinin əhəmiyyətli meyarı olan intellektual potensialın inkişaf etdirilməsi, mobilləşdirilməsi, reallaşması üçün optimal imkanların açılması zəruridir.

7. Sosial dövlət vətəndaş cəmiyyətinin tərəqqisinə əsaslanan dövlətdir. Vətəndaş cəmiyyəti bütün maraq qruplarının – elmi birlik, siyasətçilər, biznesmenlər, ictimai təşkilatlar və hərəkatların və s. nümayəndələrinin dövlət idarəçiliyinə cəlb edilməsinə, beləliklə, onların dövlətin və cəmiyyətin inkişafında iştirak etməsinə təhrik edir. Dövlətin sosial siyasəti iqtisadi, siyasi, mədəni və sosial sahələrin innovasion inkişafının müəyyənləşdirilməsinə və bu yöndə tədbirlər planının reallaşdırılmasına səy etməlidir.

8.Sosial dövlətin sosial siyasəti sakinlərin firavan həyatına zəmanət, layiqli yaşayışına təminatla bağlıdır. Sosial siyasət vətəndaşların sosial mühafizəsinə, ümumilikdə, ölkənin milli təhlükəsizliyinə zəmanəti ilkin məqsəd kimi həyata keçirməyə yönəlir. Milli təhlükəsizliyin təminatı dövlətin öz suverenliyini

təmin etməsinin təməl ünsürü kimi götürülə bilər. Dövlət, o cümlədən sosial dövlət daxili və xarici siyasətində öz vətəndaşlarının maraqlarının müdafiəçisi, onların hamisi olmaqla, milli təhlükəsizliyə müvəffəq ola bilər. Milli təhlükəsizliyin təminatı dedikdə, daxili və beynəlxalq məkanda sabit sosial münasibətlərə nail olunması, yəni hərbi və iqtisadi təhlükəsizlik, sosial və siyasi təhlükəsizlik, beynəlxalq təhlükəsizlik düşünülür. Milli təhlükəsizliyin təmin edilməsi vətəndaş – cəmiyyət – dövlət qarşılıqlı əlaqələrində dövlətin üstün mövqeyinin təsdiqlənməsidir. Sosial dövlət sırf liberal və ya sırf sosial-demokrat yönəlişli ola bilməz və burada həm fərdi azadlıq, həm də dövlətin müdaxiləsi məsələləri tarazlaşdırılmış şəkildə həyata keçirilməlidir.

9.Hazırda sosial dövlətin üç modeli – sosial-demokratik, konservativ və liberal formaları mövcuddur. Sosial dövlətin Azərbaycan modeli özündə hər üç modelin xüsusiyyətlərini daşıyır, lakin müəyyən parametrlərə görə sosial-demokratik modelin bəzi göstəriciləri daha üstün mövqedədir. Bunu yaradan təməl dəlillərdən biri sosial dövlətin milli inkişaf strategiyasının tədbirlər planı kimi təyin olunması, müntəzəm həyata keçirilməsidir.

10.Ölkəmizdə sosial yönümlü bazar iqtisadiyyatlı sosial dövlət formalaşır. Sosial dövlətin Azərbaycan modeli bir tərəfdən azad sahibkarlığın və xüsusi mülkiyyətin inkişafına yönələn sosial liberal, digər tərəfdən sosiumun müxtəlif sahələrində dövlətin müdaxilə imkanlarını nəzərdə tutan sosial demokrat təmayüllərini özündə sintez edir.

11. Azərbaycanda sosial dövlət quruculuğu modelinin nəzəri-ideoloji əsasları azərbaycançılıq konsepsiyasıdır. Bu konsepsiyasının banisi ümummilli lider Heydər Əliyevdir. Heydər Əliyev azərbaycançılıq ideologiyasının mahiyyətini – "*Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, ...xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün*

*vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları*"[83] olaraq müəyyənləşdirmişdir. Azərbaycançılıq ölkəmizdə yeni sosial identiklik - vətəndaşlıq modelinin formalaşmasına əsas olmuşdur.

12. Sosial dövlətin konstitusion əsasları sosial tərəqqinin təməl məqsədlərini qanuniləşdirmişdir. Burada sosial dövlət quruculuğu ilə bağlı konkret maddələr vardır. Konstitusiyanın 15-ci, 16-cı və 38-ci maddələri bilavasitə sosial inkişaf məsələlərinə həsr edilib. Konstitusiyasının 15.1-ci maddəsində Azərbaycan Respublikasında müxtəlif mülkiyyət növlərinin və sahibkarlığın inkişafı üzərində qurulan iqtisadiyyatın xalqın rifahına xidmət etdiyi göstərilir. Maddə 15.2-də "*bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradılması, azad sahibkarlığa təminat verilməsi, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi*" vurğulanır. Bu maddələr sosial dövlətin təməl prinsiplərini ehtiva edir.

13.Konstitusiyada Maddə 16 Sosial inkişafla bağlıdır. Burada dövlətin "*xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi*" qayğısına qaldığı vurğulanır. Vətəndaşların sosial təminat hüquqları haqdakı 38-ci maddədə dövlətin sosial dəstək məqsədilə xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin tərəqqisinə imkanlar açdığı göstərilmişdir. Xeyriyyəçilik fəaliyyəti sosial dövlətin başlıca prinsiplərindəndir.

14.Dövlətimizin Milli İnkişaf strategiyası sakinlərin sosial firavanlığını, dayanıqlı inkişafı, insan kapitalının dəyərliliyini ehtiva edir. Təhsil, səhiyyə, sığorta və pensiya sistemlərinin təhlilinə əsasən deyə bilərik ki, sosial dövlətin Azərbaycan modeli dayanıqlı inkişafın əsas xüsusiyyətlərini, mövcud dövlətçilik ənənələrini və praktikasını özününküləşdirən hüquqi dövlətin yeni mərhələsidir və vətəndaş cəmiyyətinin tərəqqisinə yönəlib.

---

[83] Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı // Azərbaycan. – 1999, 2 fevral. – s.1-2 .

15. Sosial siyasət güclü hüquqi-qanunverici əsaslara söykənir. Sosial siyasətdə dövlətin dominantlığı, sosial problemlərin həllində hökumətin güclü siyasi iradəsinin olması ölkəmizdə sosial dinamikanın müsbət yönlülüyünə, sosial dövlət quruculuğunun cəmiyyətin tələblərinə və qloballaşma dövrünün çağırışlarına uyğunlaşdırılmasına, çevik sosial innovativ islahatlarının aparılmasına səmərəlili təsir göstərmişdir.

16.Dövlət tərəfindən aparılan innovativ sosial siyasət sosial xidmətlərdə institusional islahatların aparılması diqqəti cəlb edir. Sosial xidmətləri vahid sistemdə birləşdirən “ASAN xidmət” mərkəzləri, həmçinin əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" (DOST) yaradılmısdır.

17. Milli iqtisadi sistemdə və sosial quruculuqda dövlət sektoru əhəmiyyətli potensiala malikdir, hökumət sahibkarlığın inkişafına dəstək tədbirlərini davam etdirir və sosial dövlətin sütunu hesab edilən “orta təbəqə” formalaşma mərhələsindədir.

18.Ölkəmizin müasir iqtisadi inkişaf siyasəti neft strategiyasının reallaşdırılması ilə paralel qeyri-neft sektorunun tərəqqisinə, infrastrukturun yeniləşməsinə yönəlib. Dünya iqtisadiyyatına inteqrasiya sayəsində dövlətimiz dinamik sosial iqtisadi inkişafa müvəffəq olmuşdur. Qlobal iqtisadi böhranın Azərbaycanda təsiri imkanlarının minimallaşdırılması və vəziyyətin idarə edilməsi üçün dayanıqlı sosial iqtisadi inkişafa keçilmişdir.

19.Sosial dövlətin Azərbaycan modelinin uğurlu tərəqqisinə müvəffəq olmaq amalı insan kapitalının inkişafını zəruri amilə çevirmişdir.

20. Sosial yönümlü bazar iqtisadiyyatı sosial inkişafın dayanıqlığının idarə edilməsilə bağlı tədbirlər sisteminin reallaşdırılmasını ehtiva edir.

21.Regionların tərəqqisi fermer təsərrüfatının inkişafını, sahibkarlara dövlət dəstəyinin optimallaşdırılmasını, o cümlədən kooperativ təsərrüfatın inkişafını zəruriləşdirmişdir.

22. XXI əsrdə bütün dünyanın üzləşdiyi qlobal sosial böhrana əsas verən COVİD -19 pandemiyası ilə bağlı görülən tədbirlər ölkəmizdə sosial institutların (təhsil, elm, səhiyyə, sosial xidmət sahələri, sahibkarlıq və s.) fəaliyyətinin yeni təməllərdə qurulması zəruriliyini aktuallaşdırmış oldu.

23.II Qarabağ müharibəsi hərbçilərin, o cümlədən müharibə iştirakçılarının, şəhid ailələrinin və yaralananların sosial müdafiəsi və sosial təhlükəsizliyi istiqamətində siyasətin təkmilləşdirilməsini tələb edir.

24.Qaçqın və məcburi köçkünlərin statusunun ləğv edilməsi prosesində onların azad edilmiş ərazilərdə yerləşdirilməsi aktuallaşır və bu, ilk növbədə yeni iqtisadi zonada sosial infrastrukturun qurulmasını ehtiva edir.

Eyni zamanda, sosial dövlət quruculuğunun milli Azərbaycan modelinin təkmilləşdirilməsi yönündə görüləcək tədbirlərlə bağlı təklif və tövsiyələr təqdim edilmişdir:

1.Sosial dövlət modelinin perspektiv üçün əsas istiqamətlərini, məqsədləri və vəzifələrini, mərhələlərini və mexanizmlərini müəyyənləşdirən ümumi "Azərbaycan Respublikasının Milli Sosial İnkişaf Strategiyasının" hazırlanması məqsədəuyğun olardı;

2.Ölkəmizdə sosial dövlət quruculuğunun nailiyyətlərinin daha da artıq səviyyədə olmasına maneə kimi bir milyondan çox qaçqının öz doğma torpaqlarına qaytarılması bu strategiyada ilk sıralarda dura bilər və beynəlxalq sosial yönümlü təşkilatlarla müvafiq fəaliyyət reallaşdırıla bilər;

3.İnsanların sosial mühafizəsində mütərəqqi sosial standartların formalaşdırılması prosesinin inkişafın dinamik templərindən nisbətən geri qalmasının, onunla uyğunsuzluğunun ləğvi bu istiqamətdəki nailiyyətləri artıra bilər.

4.Sosial siyasətdə "dövlət-özəl sektor tərəfdaşlığının" tam gücü ilə reallaşdırılması, özəl sektorun irəliləyişinin tələblərə uyğun

vəziyyətə gətirilməsi xüsusi mülkiyyətin möhkəmlənməsinə və sahibkarların sosial məsuliyyətinin artırılmasına, həssas təbəqələrə münasibətdə dövlətin yardımçı qüvvəsinə çevrilməsinə gətirər.

5.Azərbaycanda sosial dövlət quruculuğunun, Milli inkişaf strategiyasının uğur qazanmasında əsas xüsusiyyətlərdən biri olan - "sosial identiklik - vətəndaşlıq" amilinin, onun əsaslandığı azərbaycançılıq ideyasının sosial mahiyyətinin diqqət mərkəzinə gətirilməsi, təbliği və təşviqi imkanlarının genişləndirilməsi sosial dövlətin mənəvi təməlləri kimi şəxsiyyət - cəmiyyət – dövlət münasibətlərində sosial həmrəyliyin, sosial dialoqun və sosial əməkdaşlığın tərəqqisinin özəyi ola bilər.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap etdirdiyi məqalələrində öz əksini tapmışdır:

1.Azərbaycanda sosial dövlət quruculuğu modelinin qabaqcıl ölkələrlə müqayisəli təhlili // Strateji təhlil, – 2012. №4, - s.137-147

2. Yoxsulluq qlobal problem kimi // Dirçəliş XXI əsr, - 2012. № 164-165, - 202-209.

3. Mədəni qloballaşma və milli mədəniyyət // Beynəlxalq konfrans materialları "Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial mədəni inkişaf", - Bakı, - 21-22 dekabr – 2012/ - s.74-77.

4.Liberalizmdə sosial dövlət ideyası // Beynəlxalq Elmi Konfrans materialları "Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları. Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş", - Bakı, - 27-28 iyun, - 2013. - s.557-559.

5.Construction of the social state in Azerbaijan // Abstracts collection on new challenges in the European area "International Baku Forum of Young Scientists dedicated to the 90-th anniversary of national leader Heydar Aliyev" - Baku, - 20 – 25 may, - 2013/ - s.479-482.

6.Sosial dövlətin Türkiyə modeli // Beynəlxalq Elmi Konfransın Materialları "Türkiyə - 90. Türkiyə Cümhuriyyətinin müstəqilliyinin 90 illiyinə həsr olunmuş". - Bakı - 28 oktyabr, - 2013. - s.70-77.

7. Azərbaycanda məhkəmə islahatlarının keçiriməsində Heydər Əliyevin rolu // Asiya Minor Studies. Haydar Aliyev Özel sayısı, - 2013, cilt 1, - s.73-80. URL: file:///D:/Users/User/Downloads/Yrd.Doc.Dr._Anar_GAFAROV_QAFAROV_ASIA_MI.pdf

8.Cəmiyyətin sosial strukturu haqqında nəzəriyyələr // Turkish Studies. – 2014. 9/5, - p. 1551-1563.
URL:http://www.turkishstudies.net/DergiTamDetay.aspx?ID=6773

9.Qaçqınlar və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması Azərbaycan respublikasının sosial siyasətinin prioritet istiqaməti kimi // Strateji təhlil, - 2014. №7-8, - s.261-279.

10.Sosial dövlət ideyasi sosioloji fikir tarixində (L. fon Şteyn, A.Vaqner, F.Naumann, C.Keynsin araşdırmalarında) // - Bakı: Həyat sosiologiyası, - 2014. - s.49-60.

11.N.Tusi yaradıcılığında dövlət idarəçiliyi məsələləri // Beynəlxalq Konfrans materialları "Nəsirəddin Tusinin xatirəsinə həsr olunmuş Riyaziyyatin və Astronomiyanin Tarixi, Mövcud Durumu və Gələcəyə Baxış", - Bakı, - 10-12 sentyabr, - 2014. - s.257-263.

12.Dövlətin sosial siyasətinin həyata keçirilməsində sosial institutların rolu // Strateji təhlil, - 2015. 1 (12), - s. 123-135.

13.Локальные эффекты культурной глобализации // Сборник материалов 1-й Международной научно-практической конференции «Фундаментальные и прикладные исследования: современные научно-практические решения и подходы», - Баку-Ужгород-Дрогобич - 27-28 октября, - 2016. - s. 343 – 344.
URL:https://dspace.uzhnu.edu.ua/jspui/bitstream/lib/14186/1/%D0%A4%D1%83%D0%BD%D0%B4_%D1%82%D0%B0_%D0%BF%D1%80%D0%B8%D0%BA%D0%BB%D0%B0%D0%B4_%D0%B4%D0%BE%D1%81%D0%BB_.pdf

14.Cəmiyyətin sosial strukturu haqqında sinfi nəzəriyyə // AMEA Fəlsəfə Institutunun Elmi əsərləri, - 2016. N 1 (26), - s.171-177.

15.Sosial səhiyyə Azərbaycanda sosial dövlət quruculuğunun əsas istiqaməti kimi: reallıq və perspektivlər // Strateji təhlil, - 2016. № 3-4 (17-18), - s.265-275.

16.Tolerantlıq və multikulturalizm bəşəriyyətin təhlükəsizliyinin əsasları kimi // Beynəlxalq Elmi Konfransın Materiallar Toplusu “Azərbaycan mutikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri”, - Bakı: - 8-9 sentyabr – 2016. - s.385-389.

17.Multikulturalizm siyasəti və reallıqlar // Beynəlxalq Elmi Konfransın Materialları “Ulu öndər Heydər Əliyevin irsində multikultural və tolerant dəyərlər”, - Bakı, - 3-5 may, - 2016, - s.196-198

18.Türkiyə dövlətinin müasir inkişaf meylləri // Beynəlxalq Konfransın Materiallar Toplusu “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağərışlar”, - Bakı: 14-15 noyabr, - 2016. - s.134-138.

19.Azərbaycanda sosial dövlət quruculuğu prosesində lobbiçilik fəaliyyəti // Beynəlxalq Konfrans Materialları “Qafqazşünasların I Beynəlxalq Forumu”, - Bakı: - 10-13 aprel, - 2017, - s.377-381.

20.Sosial dövlətin formalaşmasının tarixi-nəzəri əsasları // AMEA Fəlsəfə Institutunun Elmi əsərləri. – 2017. N 2 (29), - s.130-138.

21.Концепции о социальных изменениях в Средневековом Востоке // Сборник материалов 2-ой Международной научно-практической конференции «Фундаментальные и прикладные исследования: современные научно-практические решения и подходы». - Баку-Ужгород-Дрогобич, - 10-14февраля, - 2017. -s. 571 – 574. URL: http://farcspsa.com/wp-content/uploads/2019/0896-2.pdf

22.«Социально-синергетическая институализация» как методологическая основа исследования процесса развития социального государства // - Одеса: Актуальні проблеми

філософії та соціології: Науково-практичний журнал. – 2017. - Вип. 16, с. 69-72. URI: http://hdl.handle.net/11300/11680

23.Social state and sosially-oriented market economy // European Journal of Humanities and Social Sciences, - 2017. N 4, - p.125-130. URL:https://ppublishing.org/upload/iblock/30d/EJH-4_2017.pdf

24.Sosial dövlətin Yaponiya modeli // Sivilizasiya, - 2017. Cild 6, N 4, - s.26-32.

25.Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideoloji əsasları // Dövlət və din, - 2017. N 6 (53), - s.21-30.

26.Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri / S.D.Məmmədova. – Bakı: Avropa, - 2017. - 232s.

27. Socially-oriented market economy the basis of development of social state // PONTE, 2018. 74 (10), - p.47-61. URL:http://www.pontejournal.net/mainpanel/index.php/paper/viewp/PJ-5SOR7/1536045618

28.Sosial dövlətin İsveç modeli // Sivilizasiya. – 2018. Cild 7, N 1 (37). - s.44-49.

29.Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti. "Strateji təhlil" jurnalı, Say 1-2 (23-24), 2018. s.291-309.

30.Liberal sosial dövlətin Britaniya modeli // Sivilizasiya, 2018. - Cild 7, N 2 (38), - s.6-12.

31.Sosial dövlət idarəçiliyin daha təkmil forması kimi // AMEA Fəlsəfə İnstitutunun Elmi əsərləri, - 2018. №1(30),-s.110-117.

32.Sosial dövlətin Azərbaycan modeli // Bakı: AMEA-nın Xəbərləri, - 2018. N 4. - s.127-145.

33.Elm sosial institut kimi // I beynəlxalq elmi konfrans materialları "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar", - Bakı, - 28-29 oktyabr, - 2018. - s.142-144.

34.Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsasları // I Beynəlxalq elmi konfrans materialları "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-

ci ildönümünə həsr olunur”,- Bakı, - 9 aprel – 5 may, - 2018, - s.270-271.

35. Sosial dövlətin Almaniya modeli // Tarix İnstitutunun Elmi əsərləri, - 2018.- 69-cu cild, - s.20-30.

36. Social state: essence and prospects // VII International Conference of European Academy of Sciences & Reserch. Baki, -4 aprel – 1 may, - 2019. - s.81.
URL:https://drive.google.com/file/d/1Y3mHj5KBiyXf1ClQIgUkIWoEphqDHllX/view

37.“Ədalətli dövlət” ideyası sosial dövlət konsepsiyasının əsasları kimi // Sivilizasiya, - 2019. - Cild 8 N1 (41), - s.22-29.

38.Социальные изменения основной фактор переходного периода // Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2019. - Cild 10, N 1 (37), - s.320-326.

39.Современные тенденции развития образовательного учреждения в Азербайджане // Azərbaycan Bakı Slavyan Universitetinin Elmi əsərləri, - 2019. N 1, - s.10-27.

40.Opportunities of application of social synergistic institutionalization concept in a social state // Metafizika. – 2019. - cild 2, №2(6), - s. 7-24.
URL:http://metafizikajurnali.az/yukle/files/Metafizika.Vol.2%2CNo.2%2CSerial.6%2CPP.7-24.pdf

41.Sosial həmrəylik və sosial məsuliyyət dövlət-cəmiyyət-vətəndaş münasibətlərinin təməl əsasları kimi // AMEA Fəlsəfə İnstitutunun Elmi əsərləri, - 2109. - N 1 (32), - s.74-83.

42.Milli inkişaf strategiyası Azərbaycanda sosial dövlət quruculuğunun əsası kimi // Sivilizasiya, - 2019. - Cild 8 N2 (42), - s.7-14.

43.Архаические воззрения о социальных изменениях // Bakı Qızlar Universitetinin Elmi əsərləri, - 2019,.- Cild 10, N 2 (38), - s.297-303.

44.Sosial dövlətin inkişafının nəzəri əsasları // Sivilizasiya, - 2019. - Cild 8 N1 (43), - s.32-40.

45.Sosial dövlət modelləri (bəzi inkişaf etmiş ölkələrin nümunəsində) / S.D.Məmmədova. - Bakı: Avropa nəşriyyatı, - 2019. -202 s.

46. Современные тенденции развития образовательного учреждения в Азербайджане // Bakı Slavyan Universitetinin Elmi əsərləri, -2019. - N1, - s. 10-27.

47. Социальное государство: перспективы развития в мире и в Азербайджане // Sosial elmlər, 2020. - N 1, - 148-156.

48. National Strategy For The Development Of Azerbaijan State // International Conference «Social and Cultural Transformations in the Context of Modern Globalism» (SCT 2020), - Grozny, Russia, - February 28-29, - 2020. - pp.3127-3132. URL: https://www.europeanproceedings.com/files/data/article/10040/11975/article_10040_11975_pdf_100.pdf

49. Исторический генезис строительства социального государства в Азербайджане // Москва: Вопросы истории, - 2020. №3, - с.225-231. URL: https://www.elibrary.ru/item.asp?id=42530974; https://www.scopus.com/record/display.uri?eid=2-s2.0-85087613412&origin=inward&txGid=5066672f7abd16efbb47c98d5733313b

50. Sosial əməkdaşlıq və sosial tərəfdaşlıq sosial tərəqqinin əsasları kimi // Beynəlxalq elmi-praktik konfransın materialları "Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunan Milli təhlükəsizliyin iqtisadi və sosial-mədəni aspektləri", - Bakı, - 5 may, - 2020. - s.117-119.

Dissertasiyanın müdafiəsi “ 16 ” “ may ” 2021-ci il tarixində saat 14.00-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 3.02 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Azərbaycan, Bakı ş., Hüseyn Cavid prş 115, AZ 1073

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “ 9 ” “ aprel ” 2021-ci ildə tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:07.04.2021
Kağızın formatı: A5
Həcm: 72404 işarə
Tiraj:100